AZƏRBAYCAN
XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

# DƏNİZ

QƏZET 1931-ci ildən nəşr olunur

22 noyabr 2017-ci il № 81-84 (9175) www.seanews.az Qiymәti 50 qәpik

## BU SAYIMIZDA

### BAKIDA BEYNƏLXALQ TRANSXƏZƏR NƏQLİYYAT MARŞRUTUNUN İNKİŞAF PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNUB



*Bakıda "Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası Hüquqi Şəxslər Birliyinin (BTNM BA HŞB) ümumi yığıncağı keçirilib.*

Səh. 2

### KARYERAYA GEDƏN YOLDA DİL ÖNƏMLİ VASİTƏDİR



***Noyabrın 16-17-də Azərbaycan Dövlət Dəniz Akademiyasında ənənəvi "Dil-karyeraya gedən yol" IV ümumrespublika ali məktəblərarası tələbə müsabiqəsi keçirilib.***

Açılış mərasimində Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru Çingiz Əliyev müasir dövrdə tələbə gənclərin karyera hazırlığında xarici dillərin, xüsusilə də ingilis dilinin böyük rol oynamasından danışaraq, bu müsabiqənin əhəmiyyətini vurğulayıb.

Səh. 3

### "ZIĞ" GƏMİ TƏMİRİ VƏ TİKİNTİSİ ZAVODU TƏKMİLLƏŞİR



***"Zığ" Gəmi Təmiri və Tikintisi Zavodu təkmilləşir.***

Sənaye müəssisələrinin paytaxtın mərkəzindən köçürülməsi ilə bağlı Dövlət Proqramına uyğun olaraq Bulvar ərazisində yerləşən "Paris Kommunası" və "Zaqfederasiya" kimi tanınan gəmi təmiri zavodları sökülüb, Zığ şosesi yaxınlığında "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin strukturu olan "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodu inşa edilib.

Səh. 4

### "DÜNYA DƏNİZÇİLİK UNİVERSİTETİNDƏ OXUMAQ ASAN OLMASA DA... "



***Müsahibimiz "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin istedadlı və perspektivli gənclərin xarici ölkələrin aparıcı dənizçilik universitetlərində təhsil alması məqsədi ilə təsis etdiyi Təqaüd Proqramının qalibi, hazırda proqram üzrə Dünya Dənizçilik Universitetində (World Maritime University) təhsil alan Nərminə Cabbarovadır.***

Səh. 5

### DƏNİZ AKADEMİYASINDA MÜLKİ MÜDAFİƏ ÜZRƏ TƏLİM KEÇİRİLİB



***Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Qoşunlarının Mülki müdafiə idarəsi Azərbaycan Dövlət Dəniz Akademiyasında mülki müdafiə üzrə nümunəvi təlim keçirib.***

Səh. 6

### ÖZÜNDƏN GÜCLÜLƏRLƏ DÖYÜŞƏN XANIM



*Fəridə Abdullayeva: "Nə qədər çox aktiv və sürətli olsanız, həmişə birinci olacaqsınız"*

***İstək olan yerdə hər şey etməyin mümkün olduğunu düşünür. Amma təkcə istəməklə hər şey əldə etmək mümkün deyil.***

Səh. 8




Son 25 il ərzində partiyamız uğurla inkişaf edib və bütün seçkilərdə - həm parlament, həm prezident seçkilərində böyük səs çoxluğu ilə qalib gəlib. Bu gün Azərbaycanda bizim partiyamıza rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, ümumxalq partiyasına çevrilibdir. Cəmiyyətimizin bütün təbəqələri partiyamızda birləşib. Buna baxmayaraq, biz həmişə qabağa baxmalıyıq və əldə edilmiş uğurlarla kifayətlənməməliyik. Uğurlarımızın səbəblərindən biri də məhz ondan ibarətdir ki, əldə edilmiş uğurlar bizə əlavə stimul verir. Çatışmayan cəhətləri aradan qaldırmaq, sosial ədaləti daha da böyük dərəcədə bərqərar etmək üçün biz bundan sonra da fəal çalışmalıyıq…

Hesab edirəm ki, hər bir ölkə üçün qonşularla münasibətlər xüsusi əhəmiyyət daşıyır. Biz qonşu ölkələrimizlə qarşılıqlı hörmət və inam əsasında çox gözəl və işgüzar münasibətlər qura bilmişik. 30 oktyabr-1 noyabr tarixlərində dörd qonşu ölkənin liderləri ilə mənim görüşlərim olubdur və bu 2-3 gün ərzində həm "Şərq-Qərb", həm "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin işə salınması və inkişafı istiqamətində çox önəmli hadisələr qeydə alınıbdır. Əgər qonşu ölkələrlə bizim gözəl münasibətlərimiz olmasaydı, əlbəttə, bu layihələr haqqında heç danışmağa da dəyməzdi. Bu gün Azərbaycan haqlı olaraq Avrasiya qitəsində nəqliyyat mərkəzlərinin birinə çevrilmək əzmindədir və biz bunu edirik. Nəqliyyat sahəsində tranzit ölkə statusunu almaq üçün mütləq qonşularla isti münasibətlərin olmalıdır. Ona görə bu, xarici siyasətimizin əsas prioritetidir və çox sevindirici haldır ki, qonşu ölkələrlə bizim heç bir problemimiz yoxdur…

Ölkəmiz üçün çox böyük əhəmiyyət daşıyan iki istiqamət üzrə - energetika və nəqliyyat sahələrinin gələcək inkişafı ilə bağlı bizim çox aydın hədəflərimiz var. Neft-qaz sahəsində bütün vəzifələr icra edildi. "Azəri-Çıraq-Günəşli" kontraktının müddəti uzadıldı. "Cənub Qaz Dəhlizi"nin icrası da uğurla gedir. Əminəm ki, gələn il biz TANAP layihəsinin açılışını qeyd edəcəyik.

Bütövlükdə "Cənub Qaz Dəhlizi"nin tamamlanması 2020-ci ildə nəzərdə tutulur. Mən burada da heç bir problem görmürəm. Sadəcə olaraq biz qrafik üzrə getməliyik. Avropa İttifaqı da Azərbaycanı bu layihənin həyata keçirilməsində aparıcı ölkə kimi tanıyır. Doğrudan da bizim bu layihənin icrasında rolumuz danılmazdır və aparıcıdır.

Nəqliyyat sahəsində. Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsindən sonra əsas səylərimiz onunla bağlı olacaq ki, biz yüklərin həcmini artıraq. İndi biz bu məsələ üzərində çalışırıq. Bununla yanaşı, "Şimal-Cənub" nəqliyyat dəhlizinin yaradılması istiqamətində əlavə addımlar atılmalıdır. Biz öz ərazimizdə demək olar ki, bütün işləri gördük. İndi bu layihənin tamamlanması üçün əlavə texniki və maliyyə resurslarımızı ortaya qoymağa hazırıq. Beləliklə, bu iki layihə Azərbaycanı əvəzolunmaz nəqliyyat mərkəzinə çevirəcək. Bu, bizim həm siyasi, həm iqtisadi maraqlarımızın təmin edilməsində çox mühüm rol oynayacaq.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*(Noyabrın 14-də Bakıda, Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyinə həsr edilmiş təntənəli yubiley mərasimindəki nitqindən)*

## İKİ MİLYARDINCI TON NEFTİN HASİLİ MÜNASİBƏTİLƏ TƏLTİF OLUNANLAR ARASINDA GƏMİÇİLİYİN ƏMƏKDAŞLARI DA VAR

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanda neft yataqlarından sənaye üsulu ilə iki milyardıncı ton neftin hasil edilməsi münasibəti ilə neft və qaz sənayesinin inkişafında xidmətlərinə görə bir qrup neftçini təltif edib.***

Ölkə başçısının imzaladığı sərəncamlara əsasən 1 nəfər "Şöhrət" ordeni, 2 nəfər 2-ci dərəcəli "Əmək" ordeni, 12 nəfər 3-cü dərəcəli "Əmək" ordeni, 48 nəfər "Tərəqqi" medalı ilə təltif olunub, 3 nəfərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilib.

Həmçinin neft və qaz sənayesinin inkişafında xidmətlərinə görə 8 nəfər "Əməkdar mühəndis", 1 nəfər "Əməkdar hüquqşünas" fəxri adına layiq görülüb.

Mükafatlandırılanlar arasında neft sənayesinin inkişafında xüsusi rolu olan **"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC**-nin əməkdaşları da var. Həmin dənizçilərin bəziləri hələ də fəaliyyətini davam etdirir. Onları tanıyaq…

**Fuad Qurbanov** – "AXDG" QSC-nin "Bibiheybət" Gəmi Təmiri Zavodunun baş mühəndisidir. Ömrünün 42 ilini neft və qaz sənayesinin inkişafına həsr edib. Prezident İlham Əliyevin sərəncamı ilə "Əməkdar mühəndis" fəxri adına layiq görülüb.

**Aslan Musayev** – Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin sabiq əməkdaşıdır. Uzun müddət hamiyəçi kapitan işləyib. Ümumilikdə 65 il dənizçi kimi fəaliyyət göstərib. Onun 55 ili sırf neft sənayesi ilə bağlıdır. Prezidentin sərəncamı ilə 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif olunub.

**Gündüz Qədimov** – "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti Xəzər Dəniz Neft Donanmasına məxsus "General Şıxlinski" gəmisində baş mexanikdir. 41 illik iş təcrübəsi var. Prezidentin sərəncamı ilə 3-cü dərəcəli "Əmək" ordeninə layiq görülüb.

**Kamil Muxtarov** – "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin qabaqcıl kapitanlarından biridir. Hazırda AXDG"QSC-nin Xəzər Dəniz Neft Donanması "Sabit Orucov" gəmisinin kapitanıdır. 40 ildir ki, dənizçilik sahəsindədir. Prezidentin sərəncamına əsasən "Tərəqqi" medalına layiq görülüb.

**Adil Şahgəldiyev** – "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Xəzər Dəniz Neft Donanması "General Əsədov" gəmisinin böyük mexanikidir. 39 illik iş təcrübəsinə malikdir. "Tərəqqi" medalı ilə təltif olunub.

**Balaoğlan Dadaşev** – "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Xəzər Dəniz Neft Donanmasının Qaradağ Texniki Xidmət və Təmir Bazasının 6-cı dərəcəli gəmi təmiri çilingəridir. 44 ildir ki, bu sahədə çalışır. "Tərəqqi" medalına layiq görülüb.

## GƏMİÇİLİK XARİCİ SULARDA FƏALİYYƏTİNİ GENİŞLƏNDİRİR

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti xarici sularda daha bir gəmi istismara verib. Belə ki, "Qafur Məmmədov" quru yük gəmisi Xəzərdən kənarda yükdaşımalara cəlb olunub. Bununla da Gəmiçiliyin Xəzərdən kənarda üzən gəmilərinin sayı 12-yə çatdırılıb. Onlardan 11-i quru yük gəmisi, biri isə tankerdir.***



"Qafur Məmmədov" gəmisi noyabrın 17-də səhər saatlarında yükləmə əməliyyatı üçün Rusiya Federasiyasının Taqanroq limanına yan alıb. Buradan isə yüklə Türkiyənin İzmir limanına səfərə çıxacaq. Azov, Qara və Aralıq dənizləri hövzələrində üzəcək quru yük gəmisinin istismarına nəzarəti, eyni zamanda texniki xidməti "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Türkiyədəki "Caspdry" şirkəti həyata keçirəcək.

Dedveyti 5500 ton, uzunluğu 108,3, eni 16,5, saya oturumu 4,79 metr olan "Qafur Məmmədov" gəmisi Gəmiçiliyin xaricdə quru yük daşımaları bazarındakı mövqeyini daha da möhkəmləndirəcək.

Xatırladaq ki, Gəmiçiliyin xarici sulardakı fəaliyyəti uzun fasilədən sonra 2014-cü ildə prezident İlham Əliyevin tapşırığına əsasən "Üzeyir Hacıbəyli" və "Natəvan" gəmilərinin alınması ilə bərpa edilib. Bu isə sözsüz ki, ölkəmizə xarici valyutanın gətirilməsində, eyni zamanda gəmiçiliyin inkişafında mühüm əhəmiyyət kəsb edir.

# BAKIDA BEYNƏLXALQ TRANSXƏZƏR NƏQLİYYAT MARŞRUTUNUN İNKİŞAF PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNUB

***Bakıda "Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası Hüquqi Şəxslər Birliyinin (BTNM BA HŞB) ümumi yığıncağı keçirilib.***

Tədbirdə 2017-ci il üzrə BTNM BA HŞB-nin işinə dair yekun hesabat, 2018-ci il üçün daşınma həcminə dair planın təsdiqlənməsi, 2018-ci il üçün BTNM BA HŞB-nin büdcəsinin təsdiqlənməsi, 2018-ci il üçün tədbirlər planının, ümumi yığıncaq iclasları üzrə planın, 2018-ci il üçün illik üzvlük haqqının miqdarının və həmçinin BTNM BA HŞB-nin ştat cədvəlinin təsdiqlənməsi məsələləri müzakirə olunub.

Həmçinin 2018-ci il üçün BTNM üzrə tariflərin razılaşdırılması və təsdiqlənməsi, 2018-ci il üçün Bakı-Tbilisi-Qars dəmir yolu üzrə tariflərin razılaşdırlması və təsdiqlənməsi, 2017-ci il üçün BTNM BA HŞB-nin maliyyə-təsərrüfat fəaliyyətinə dair auditin keçirilməsi, BTNM BA HŞB ümumi yığıncağının və idarə heyətinin tapşırıqları çərçivəsində həlli tapılmayan məsələlər və BTNM BA HŞB-nə yeni üzvlərin qəbulu məsələləri də müzakirələrə daxil edilib.

Müzakirələrdə ölkələrarası yük axınının artırılması, həmçinin Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutunun səmərəli istifadəsi, Avrasiyada perspektiv nəqliyyat dəhlizlərindən biri kimi TBNM-in vacibliyi qeyd olunub. Eyni zamanda bu dəhlizin potensialından istifadə edilməsinin, bu istiqamətə yük axınının cəlb edilməsinin zəruriliyi vurğulanıb. Qeyd olunub ki, oktyabrın 30-da Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib. Bundan sonra Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutuna tranzit axını güclənəcək.









"Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası Hüquqi Şəxslər Birliyinin ümumi yığıncağının sonunda "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov, "Qazaxıstan Dəmir Yolları" Milli Şirkətinin prezidenti Kanat Alpısbayev, "Gürcüstan Dəmir Yolu" SC-nin sədr müavini Aleksi Nikolaşvili, Türkiyənin Dəmir Yolunun yük daşımaları üzrə baş direktoru Veysi Kurt, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov və Batumi Dəniz Limanının baş direktorunun müavini İlyas Mukatovun iştirakı ilə müvafiq sənədlər imzalanıb.

# DAŞKƏNDDƏ KEÇİRİLƏN "14-CÜ BEYNƏLXALQ NƏQLİYYAT VƏ LOGİSTİKA" SƏRGİSİNDƏ ÖLKƏMİZİ "ACSC LOGİSTİCS" MMC TƏMSİL EDİB



***Özbəkistanın paytaxtı Daşkənddə "14-cü Beynəlxalq Nəqliyyat və Logistika" sərgisi keçirilib.***

15-17 noyabrda baş tutan sərgidə ölkəmizi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin tərkibinə daxil olan "ACSC Logistics" MMC təmsil edib.

Ziyarətçilər "ACSC Logistics" MMC-nin göstərdiyi xidmətlər barədə məlumatlandırılıb. Həmçinin, iştirakçılara xüsusi bukletlər paylanıb. Sərgi zamanı "ACSC Logistics" MMC-nin stendi xüsusi marağa səbəb olub.

"TransUzbekistan" təcrübə mübadiləsi, rəqibləri müəyyənləşdirmək, yeni işgüzar əlaqələr qurmaq və bazarın son vəziyyətini öyrənmək baxımından unikal platformadır. Sərgiyə dünyanın 27 ölkəsindən təxminən 3568 qonağın qatılması tədbirin əhəmiyyətindən xəbər verir.

Xatırladaq ki, "ACSC Logistics" MMC həm ölkə daxilində, həm də xaricdə nəqliyyat və logistika xidmətləri göstərir. Şirkətin əsas məqsədi Avropa ilə Asiya arasındakı ən qısa marşrut kimi qədim İpək Yolu, xüsusilə Transxəzər Nəqliyyat Dəhlizinin tam istifadəsini təşviq etmək, bu istiqamətdə əlavə yükdaşıma imkanlarını araşdırmaq və həyata keçirməkdən ibarətdir.

Şirkət fəaliyyətini "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin qoyduğu ənənələr əsasında həyata keçirir. Belə ki, "ACSC Logistics" MMC şəffaf və aydın tarif siyasəti, innovativ iş üsullarından istifadə, əlavə xərcləri aradan qaldırmaq üçün qabaqlayıcı tədbirlərin görülməsi, yaranmış problemlərin həllində sürətlilik, müqavilələrə uyğun vəzifələrin peşəkarlıqla və vaxtında yerinə yetirilməsi kimi vacib prinsiplərlə işləyir.

"ACSC Logistics" MMC-nin xidmət dairəsi genişdir. Şirkət müştərilərinə yüklərin daşınması üçün ən optimal marşrut seçimi, təhlükəli və iri həcmli yüklər və onların daşınma şərtləri barədə tövsiyələr verir, yüklərin Xəzər dənizi, Qara dəniz, Azərbaycan, Gürcüstan, Qazaxıstan, Türkmənistan, Özbəkistan, MDB və Baltik ölkələrinin həm dəmir, həm də dəniz yolları ilə daşınmasını həyata keçirir. Bundan başqa, daşıma zamanı tələb olunan sənədləşmə və müşayiət xidmətlərinin, o cümlədən gömrük rəsmiləşdirilməsi, sığorta, gəmi agenti, nəqliyyat, ekspedisiya və digər xidmətlərin göstərilməsini də təşkil və təmin edir.



# GƏMİÇİLİK "CASPİAN ECOLOGY 2017" SƏRGİSİNDƏ İŞTİRAK EDİB






***Bakı Ekspo Mərkəzində 8-ci Azərbaycan Beynəlxalq Ətraf Mühit "Caspian Ecology 2017" sərgisi keçirilib.***

Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyi və IDEA (International Dialogue for Environmental Action – Ətraf Mühitin Mühafizəsi naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin dəstəklədiyi sərginin təşkilatçısı "Caspian Event Organisers" şirkətidir.

Bir çox yerli və beynəlxalq təşkilatın iştirak etdiyi sərgidə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC də xüsusi stendlə təmsil olunub.

Stenddə ziyarətçilərə maketlər, şəkillər, videoçarxların köməkliyi ilə Gəmiçiliyin göstərdiyi xidmətlər və fəaliyyəti haqqında məlumat verilib. Bundan başqa, ətraf mühitin mühafizəsi istiqamətində aparılan bir çox digər mühüm işlərin, o cümlədən üzən vasitələrdə, sahil obyektlərində formalaşan bərk və maye istehsalat, məişət-təsərrüfat tullantılarının toplanması, saxlanması, daşınması, təhvili, utilizasiyası və təkrar emalı kimi ekoloji proseslərin Gəmiçilikdə necə həyata keçirildiyi əyani nümayiş olunub.

Sərginin əsas məqsədlərindən biri insanların diqqətini ətraf mühit problemlərinə cəlb etməkdir. Təşkilatçılar bildirib ki, bu sərgi Xəzər və Qafqaz regionlarında ekologiya və ətraf mühitin mühafizəsi sahəsində təşkil edilən ən iri tədbirdir. Burada ətraf mühitin mühafizəsi və təbiətdən səmərəli istifadə sahəsində innovativ layihələr kompleks şəklində təqdim edilib.

İşgüzar əlaqələrin genişlənməsinə, təcrübə mübadiləsinə, yeni avadanlıq və sahəvi meyillərlə tanışlığa kömək edən, ətraf mühitin yaxşılaşdırılması istiqamətində aparılan işə əlavə təkan verən "Caspian Ecology 2017" beynəlxalq sərgisi üç gün davam edib.

# YENİ AZƏRBAYCAN PARTİYASININ ÜZVÜ OLAN DƏNİZÇİLƏRİN DƏ İŞTİRAKI İLƏ COCUQ MƏRCANLIYA SƏFƏR TƏŞKİL OLUNUB

***Yeni Azərbaycan Partiyasının (YAP) yaranmasının 25 illik yubileyi münasibətilə partiyanın Səbail rayon təşkilatının və Səbail Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə səfər təşkil olunub.***

Böyük Qayıdışın başlanmasının rəmzi olan Cocuq Mərcanlıya səfərdə Milli Məclisin deputatı, YAP Səbail rayon təşkilatının sədri professor Şəmsəddin Hacıyevin rəhbərliyi ilə partiya fəallarından, o cümlədən rayonun idarə, müəssisə və təşkilatlarının nümayəndələrindən ibarət 90 nəfər iştirak edib. Onların arasında "Xəzər dənizçiləri" ərazi ilk təşkilatının nümayəndələri Natalya Fatyanova və Laçın Babayev də olub.

Səfərin iştirakçıları əvvəlcə Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət edən əsgər və zabitlərlə görüşüblər.

Görüş zamanı aprel döyüşlərində Vətən uğrunda qəhrəmancasına həlak olmuş hərbçilərimizin, həyatını itirmiş mülki şəxslərin və həmin hərbi hissənin 19 şəhid hərbi qulluqçusunun əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyini əsgərlərlə birlikdə qeyd etmək üçün Cocuq Mərcanlıya gələn YAP Səbail rayon təşkilatı nümayəndə heyətinə təşəkkürünü bildirən birlik komandirinin müavini, polkovnik Elşad Əbilov əlamətdar hadisə münasibətilə hər kəsi təbrik edib, şəxsi heyətin xidməti-döyüş hazırlığı barədə məlumat verib. Bildirib ki, Azərbaycan bütün sahələrdə olduğu kimi, hərbi qüdrətini də gündən-günə artırır. Silahlı Qüvvələrimizin döyüş qabiliyyətinin yüksəldilməsi, peşəkarlığının artırılması istiqamətində mütəmadi tədbirlər həyata keçirilir. Döyüş hazırlığına ciddi önəm verilməsinin nəticəsidir ki, Azərbaycan Silahlı Qüvvələri hazırda istər quruda, istər havada, istərsə də dənizdə istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir.

YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev qeyd edib ki, Orduda xidmət hər bir Azərbaycan gənci üçün şərəf və qürur mənbəyidir. Bu gün Ordumuzun hər bir əsgər və zabiti Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı sayəsində respublikamızın ərazi bütövlüyünün bərpası, torpaqlarımızı işğalçılardan azad etməyə tam qadirdir və buna hazırdır.















Şəmsəddin Hacıyev 2016-cı ilin aprel döyüşlərindən danışaraq diqqətə çatdırıb ki, Milli Ordumuz tərəfindən həyata keçirilən sürətli əks-həmlə zamanı Ermənistanın hərbi birləşmələrinin uzun illərdən bəri mühəndis-istehkam baxımından möhkəmləndirdiyi birinci müdafiə xətti cəbhənin bir neçə istiqamətində yarılıb. Nəticədə Ordumuz strateji əhəmiyyətə malik yüksəklikləri və yaşayış məntəqələrini düşməndən tam azad edib. Aprel döyüşləri Azərbaycan hərb tarixinə ən şərəfli hadisələrdən biri kimi yazılıb və düşmən üzərində parlaq qələbə bu hərbi hissənin göstərdiyi qəhrəmanlıqlar nəticəsində qazanılıb.

"Bu gün Azərbaycan əsgəri və gəncliyi, ümumən bütün xalqımız öz əzəli torpaqlarını azad etmək üçün Ali Baş Komandanımızın əmrinə tam hazırdır. Amma biz istəyirik ki, məsələni beynəlxalq hüquq normalarına uyğun olaraq, sülh yolu ilə həll edək. Ali Baş Komandanımızın dediyi kimi, status-kvo qəbul olunmazdır və biz öz ərazilərimizdə ikinci erməni dövlətinin yaranmasına heç vaxt imkan verməyəcəyik, bir qarış torpağımızı da güzəştə getməyəcəyik", - deyə Ş.Hacıyev vurğulayıb.

Qeyd olunub ki, aprel döyüşləri Azərbaycan ordusunun gücünü nəinki düşmənə, eləcə də bütün dünyaya göstərdi. Ölkəmiz gündən-günə güclənir, iqtisadiyyatımız inkişaf edir. Azərbaycanın təkcə hərbi büdcəsi Ermənistanın bütövlükdə dövlət büdcəsindən çoxdur. Respublikamızda elm və təhsilə ayrılan vəsait Ermənistanın dövlət büdcəsinin yarısı qədərdir.

Diqqətə çatdırılıb ki, son iki ayda Azərbaycan mühüm müqavilələrə, transmilli layihələrə imza atıb. "Əsrin müqaviləsi"nin davamı olaraq, "Azəri-Çıraq-Günəşli" neft yatağının işlənilməsinin 2050-ci ilə qədər uzadılması, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, Şimal-Cənub nəqliyyat dəhlizinin açılması ilə bağlı hazırlıq işləri Azərbaycanın gücünün, iqtisadi və hərbi qüdrətinin əsas göstəriciləridir. Bütün bu layihələrdən təcrid olunan Ermənistan özünü daha da acınacaqlı vəziyyətə salıb.

Azərbaycan Ordusuna yüksək diqqət və qayğı göstərildiyini vurğulayan Ş.Hacıyev deyib ki, bu, iqtisadiyyatımızın inkişafı ilə bilavasitə bağlıdır. İqtisadiyyat güclü olanda, ordu da güclü olur.

"Bu gün bütün Azərbaycan xalqı sizinlədir. Biz bu gün sizin aranızda olmaqdan böyük qürur hissi duyur və sizə möhtəşəm qələbələr arzulayırıq. İnanırıq ki, üçrəngli bayrağımızın Ağdərədə, Xankəndidə, Şuşada dalğalanacağı gün uzaqda deyil. Əldə etdiyimiz bu uğurlar, Prezident İlham Əliyevin düşünülmüş, qətiyyətli siyasəti nəticəsində Qələbə Günü getdikcə yaxınlaşır. Əgər məsələ sülh yolu ilə həll olunmasa, biz torpaqlarımızı döyüşərək geri qaytaracağıq", - deyə Ş.Hacıyev qeyd edib.

Sonra YAP Səbail rayon təşkilatının və rayon icra hakimiyyətinin adından hərbi hissəyə xatirə hədiyyələri təqdim olunub.

Bakı Bələdiyyə Teatrının və Füzuli Dram Teatrının hazırladığı səhnəciklər əsgər və zabitlərimizdə xoş ovqat yaradıb. Teatrın üzvləri əsgərlərlə birlikdə rəqs ediblər.

Azərbaycan əsgərinin görüşünə gələn Cocuq Mərcanlı məktəblilərinin səsləndirdikləri şeirlər tədbirə rəngarənglik qatıb.

Xidmətdə fərqlənən əsgər, çavuş və zabitlərin bir qrupuna fəxri fərmanlar verilib.

Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin məsul əməkdaşı Rasim Mirzəyev hərbi qulluqçuların mükafatlandırılması mərasimində çıxış edərək Ordumuzun şücaətlərindən danışıb.

Sonra nümayəndə heyətinin üzvləri Horadiz-Cəbrayıl avtomobil yolunun kənarındakı "Aprel şəhidlərinə xatirə" abidəsini ziyarət edib, şəhidlərimizin ruhuna ehtiramlarını bildiriblər.

Cocuq Mərcanlıda şəhid Novruz Aslanov adına tam orta məktəbə gələn qonaqlar sinif otaqlarında, fənn kabinetlərində yaradılan şəraitlə maraqlanıb, müəllim və şagirdlərlə həmsöhbət olublar.

Məktəbə müxtəlif hədiyyələr və kompüter dəsti təqdim edilib.

Cocuq Mərcanlıda tikilən Şuşa məscidinin bənzəri olan məscidlə tanışlıq da qonaqlarda unudulmaz təəssürat yaradıb.

Daha sonra nümayəndə heyəti Cocuq Mərcanlıda düşmənlə təmas xəttindəki postlarda növbə çəkən əsgərlərlə görüşüb, onların xidmət şəraiti ilə yaxından tanış olublar. Əsgərlərimizin döyüş ruhunun yüksək olması qonaqlarda qürur hissi yaradıb.

# KARYERAYA GEDƏN YOLDA DİL ÖNƏMLİ VASİTƏDİR





***Noyabrın 16-17-də Azərbaycan Dövlət Dəniz Akademiyasında ənənəvi "Dil-karyeraya gedən yol" IV ümumrespublika ali məktəblərarası tələbə müsabiqəsi keçirilib.***




Açılış mərasimində Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru Çingiz Əliyev müasir dövrdə tələbə gənclərin karyera hazırlığında xarici dillərin, xüsusilə də ingilis dilinin böyük rol oynamasından danışaraq, bu müsabiqənin əhəmiyyətini vurğulayıb. Bildirib ki, özlərini dünyanın hər hansı mötəbər ali məktəbinin tələbəsi görmək istəyən, gələcək karyerasını qurmaq arzusunda olan gənclər xarici dillərin öyrənilməsinə diqqəti artırmalıdırlar. ADDA Azərbaycan Respublikası Təhsil Nazirliyinin dəstəyilə bu müsabiqəni daha geniş miqyasda təşkil edərək, tələbələrə öz bilik və bacarıqlarını nümayiş etdirmək imkanı yaradır. Məhz bunun nəticəsidir ki, 4 il əvvəl müsabiqənin ilk ilində iştirakçı sayı 8 ali məktəbdən 32 nəfər idisə, indi bu göstərici 2 dəfə artaraq 16 ali məktəbdən 77 nəfər təşkil edir. Bunlar Azərbaycan Dövlət Dəniz Akademiyası ilə yanaşı, Bakı Dövlət Universiteti, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Texniki Universiteti, Milli Aviasiya Akademiyası, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi, Bakı Mühəndislik Universiteti, Bakı Ali Neft Məktəbi, Azərbaycan Fransız Universiteti, Azərbaycan Kooperasiya Universiteti, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Akademiyasıdır.

ADDA-nın yaranma tarixini və şərəfli inkişaf yolunu əks etdirən videofilm nümayiş olunduqdan sonra respublikamızın müxtəlif ali məktəblərinin müəllimlərindən ibarət münsiflər heyəti təqdim edilib. Münsiflər heyətinə Azərbaycan Dillər Universitetinin professoru, filologiya elmləri doktoru Nigar Vəliyeva rəhbərlik edib.

Daha sonra 2016-cı ildə keçirilmiş müsabiqənin qalibi, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbəsi Məmmədağa Baydəmirov builki iştirakçılara öz ürək sözlərini çatdırıb.

Dəniz Akademiyasının Elmi işlər və beynəlxalq əlaqələr üzrə prorektoru Vüqar Sadıqov müsabiqənin şərtlərini elan edərək, iştirakçılara uğurlar arzulayıb. Qeyd edib ki, hər iştirakçıya seçdiyi mövzunu 3-4 dəqiqə ərzində audio-vizual materialların köməyi ilə təqdim etmək şansı verilir.

Tələbələr xarici dildə çıxış etməklə bir daha karyeraya gedən yolda dil amilinin önəmli bir vasitə olduğunu göstəriblər.

2 gün davam edən müsabiqənin qalibinə 1-ci dərəcəli diplom və noutbuk, II yerin sahibinə 2-ci dərəcəli diplom və planşet, III yer tutan tələbəyə 3-cü dərəcəli diplom və mobil telefon, bütün iştirakçılara isə müvafiq sertifikatlar təqdim olunub.







# TÜRKMƏNİSTAN AZƏRBAYCAN DÖVLƏT DƏNİZ ADMİNİSTRASİYASININ TƏCRÜBƏSİNDƏN YARARLANACAQ





***Türkmənistan Respublikasının Çay və Dəniz Nəqliyyatı Dövlət Xidmətinin Dəniz Üzgüçülüyünə nəzarət üzrə Dövlət Administrasiyası Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının təcrübəsindən yararlanacaq.***

Dövlət Dəniz Administrasiyasının mətbuat xidmətindən bildirilib ki, bu barədə Dövlət Dəniz Administrasiyasında Türkmənistan Respublikasının Çay və Dəniz Nəqliyyatı Dövlət Xidmətinin Dəniz Üzgüçülüyünə nəzarət üzrə Dövlət Administrasiyasının rəisi Bayseyidov Seyitqulu ilə görüş zamanı bildirilib.

Dövlət Dəniz Administrasiyasının rəisi Qüdrət Qurbanov bildirib ki, əlverişli geostrateji mövqeyə malik Azərbaycanın tranzit potensialının inkişaf etdirilməsinə yönələn Heydər Əliyev strateji kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Tarixi inkişaf yolu keçən dəniz nəqliyyati bütün zamanlarda öz əhəmiyyətliyini saxlayıb deyən Q.Qurbanov bildirib ki, Azərbaycan 1995-ci ilin may ayında BMT-nin nüfuzlu orqanı olan Beynəlxalq Dəniz Təşkilatına tamsəlahiyyətli üzv qəbul olunub. Ölkəmiz Beynəlxalq Dəniz Təşkilatına üzv olduğu tarixdən etibarən dəniz nəqliyyatı sahəsində 20-dən çox beynəlxalq konvensiya və protokola qoşulub.

Dəniz nəqliyyatı sahəsi üzrə beynəlxalq konvensiyaların tələblərindən irəli gələn öhdəliklərin icra vəziyyətinin qiymətləndirilməsi məqsədilə Beynəlxalq Dəniz Təşkilatının Audit Ekspert Qrupunun 2017-ci ilin 28 may - 6 iyun tarixlərində Dövlət Dəniz Administrasiyasında keçirdiyi audit yoxlaması barədə danışan Qüdrət Qurbanov vurğulayıb ki, yoxlamanın nəticələrinə əsasən Respublikamız 172 dünya dəniz dövləti sırasında ən qabaqcıllar olan Avropa dövlətlərini geridə qoyaraq, statistika üzrə ön sırada yer tutub.

Qüdrət Qurbanovun sözlərinə görə, Audit Ekspert Qrupunun keçirdiyi audit yoxlamasının müsbət nəticələri Azərbaycanda dəniz nəqliyyatı sahəsində həyata keçirilən tədbirlərin, qəbul edilən normativ hüquqi aktların, gəmilərin standartlarına nəzarət və müfəttişlər tərəfindən yoxlanılmasının, Dövlət Dəniz Administrasiyasının tabeliyində olan liman kapitanlarının fəaliyyətinin, liman akvatoriyalarında və ümumiyyətlə Azərbaycan Respublikasının bütün ərazi sularında gəmilərin hərəkətinin idarə edilməsi sisteminin Beynəlxalq Dəniz Təşkilatının bütün tələblərinə uyğun olaraq yüksək səviyyədə təşkil olunması barədə fikir yürütməyə əsas verir.

Beynəlxalq Dəniz Təşkilatının Audit Ekspert Qrupunun gələn il Türkmənistanın Çay və Dəniz Nəqliyyatı Dövlət Xidmətinin Dəniz Üzgüçülüyünə nəzarət üzrə Dövlət Administrasiyasında audit yoxlaması keçirəcəyinə toxunan Q.Qurbanov qarşılıqlı təcrübə mübadiləsinin aparılması məqsədilə Azərbaycanda səfərdə olan Türkmənistan nümayəndə heyətinə bu istiqamətdə lazımi mütəxəssis köməyi göstəriləcəyini bildirib.

Türkmənistan Respublikasının Çay və Dəniz Nəqliyyatı Dövlət Xidmətinin Dəniz Üzgüçülüyünə nəzarət üzrə Dövlət Administrasiyasının rəisi Seyitqulu Bayseyidov Beynəlxalq Dəniz Təşkilatının Audit Ekspert Qrupunun keçirdiyi audit yoxlaması zamanı əldə edilən uğurlu nəticələrə görə Azərbaycan Dövlət Dəniz Administrasiyasının rəisini təbrik edib. Yoxlamanın nəticələri Beynəlxalq Dəniz Təşkilatının hesabatlarında qeyd olunduğunu deyən qonaq bildirib ki, Azərbaycanın bu uğuru Beynəlxalq Dəniz Təşkilatına üzv dövlətlərin rəğbətinə səbəb olub.

Azərbaycan Dövlət Dəniz Administrasiyasının liman akvatoriyalarında və ümumiyyətlə Azərbaycan Respublikasının bütün ərazi sularında gəmilərin hərəkətinin idarə edilməsi sisteminin təşkili, beynəlxalq əlaqələr sahəsində qazandığı uğurlar, dəniz nəqliyyatı sahəsi üzrə beynəlxalq konvensiyaların tələblərindən irəli gələn öhdəliklərin icra vəziyyəti, dəniz nəqliyyatı sahəsində həyata keçirdiyi digər tədbirlərlə bağlı mövcud təcrübəsindən yararlanmağa ehtiyac var deyən qonaq Türkmənistan və Azərbaycan Dövlət Dəniz Administrasiyaları arasında qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyətindən danışıb.

Görüşdə bir sıra maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Daha sonra Türkmənistan nümayəndə heyəti, Xəzəryanı ölkələrdə ilk dəfə olaraq Azərbaycanda yaradılan, ən son naviqasiya və müşahidə avadanlıqları ilə təchiz edilən Dövlət Dəniz Administrasiyasının Uzaq Məsafədən Tanınma və İzləmə Milli Mərkəzi ilə tanış olublar.

# VAŞİNQTONDA KEÇİRİLƏN TƏDBİRDƏ BAKI-TBİLİSİ-QARS DƏMİR YOLUNUN STRATEJİ ƏHƏMİYYƏTİ VURĞULANIB

***Noyabrın 14-də Vaşinqtonda Bakı-Tbilisi-Qars dəmir yolunun rəsmi açılışına həsr olunmuş tədbir keçirilib. Tədbirin əsas məqsədi Azərbaycanın yerləşdiyi regionda həyata keçirilən infrastruktur layihələri, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolu, eləcə də mövcud biznes və sərmayə imkanları barədə ABŞ-ın ictimai və biznes dairələrinin məlumatlandırılması olub. Digər tərəfdən, tədbir Azərbaycanın təşəbbüsü ilə ərsəyə gələn və 2016-cı ildən etibarən hər il Vaşinqtonda keçirilən Trans-Xəzər Şərq-Qərb Ticarət və Tranzit Dəhlizləri Forumu çərçivəsində aparılan müzakirələrin davamlılığının təmin olunması və region ölkələri tərəfindən həmin sahələrdə əldə edilən nailiyyətlərin təqdim olunması məqsədi daşıyıb.***





Azərbaycan tərəfinin təşəbbüsü və dəstəyi ilə Xəzər Siyasət Mərkəzi tərəfindən təşkil olunan və BP-nin Vaşinqton ofisinin ev sahibliyi ilə keçirilən tədbirdə ABŞ-ın dövlət qurumlarının, akademik təşkilatların, ticarət palatalarının, biznes və siyasi dairələrin, beynəlxalq maliyyə institutlarının və diplomatik korpusun təmsilçiləri iştirak ediblər.

Xəzər Siyasət Mərkəzinin icraçı direktoru Əfqan Niftiyev və "BP America Inc."in kommunikasiya və xarici əlaqələr üzrə birinci vitse-prezidenti Meri Strit tədbirin açılışında çıxış ediblər. Sonra tədbirin moderatoru səfir Riçard Hoqland qonaqları salamlayaraq, müzakirələrin əhəmiyyətini vurğulayıb.

Bakı-Tbilisi-Qars dəmir yoluna həsr olunmuş videoçarxın nümayişindən sonra Azərbaycanın və tədbirdə iştirak edən digər dövlətlərin ABŞ-dakı səfirləri çıxış ediblər.

Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanov çıxışında müasir İpək Yolunun canlandırılmasında mühüm bağlantı olan Bakı-Tbilisi-Qars dəmir yolunun əhəmiyyətindən və onun regional əməkdaşlığın dərinləşməsinə töhfələrindən bəhs edib. Diplomat bu xüsusda oktyabrın 30-da Bakı-Tbilisi-Qars dəmir yolunun Bakıda Azərbaycan və Türkiyə prezidentlərinin, Gürcüstan, Qazaxıstan və Özbəkistan Baş nazirlərinin, habelə Türkmənistanın və Tacikistanın nazirlərinin, digər ölkələrin nümayəndələrinin iştirakı ilə keçirilən rəsmi açılış mərasiminə toxunaraq, bunun tarixi hadisə olduğunu söyləyib. Səfir diqqəti Azərbaycan, Gürcüstan və Türkiyə arasında mövcud strateji əməkdaşlığa yönəldərək, üç ölkənin əvvəlki dövrlərdə enerji sahəsində, o cümlədən Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri kimi mühüm əhəmiyyətə malik birgə irimiqyaslı layihələri həyata keçirdiklərini və hazırda Avropanın ən böyük infrastruktur layihələrindən biri olan Cənub Qaz Dəhlizinin inşası üzərində işlədiklərini vurğulayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin regional tranzit və logistik mərkəzə çevrilməsi sahəsində həyata keçirilən ardıcıl və məqsədyönlü siyasətindən danışan səfir 1998-ci ilin sentyabrında ilk dəfə olaraq müasir İpək Yolunun canlandırılmasına həsr olunmuş konfransın ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Bakıda keçirildiyini xatırladıb. Bəzi qüvvələrin istər Bakı-Tbilisi-Qars dəmir yolu, istərsə də digər irimiqyaslı layihələrin gələcəyinə inanmadığını qeyd edən diplomat bu layihələrin gerçəkləşməsində əsas amil kimi Azərbaycan rəhbərliyinin siyasi iradəsini və strateji baxışını diqqətə çatdırıb. Eyni zamanda, qardaş Türkiyənin və qonşu Gürcüstanın rəhbərliyinin qarşılıqlı dəstəyi və strateji yanaşmasının əhəmiyyətini vurğulayan səfir son zamanlar həmin layihələrə Mərkəzi Asiya ölkələrinin maraq göstərdiyini və ona qoşulduqlarını qeyd edib.

E.Süleymanov həm Şərq-Qərb, həm də Şimal-Cənub nəqliyyat dəhlizlərinin mərkəzində yerləşən Azərbaycanın region ölkələri ilə birlikdə bu dəhlizlərin cəlbediciliyinin artırılması istiqamətində həyata keçirdiyi əməkdaşlıqdan, o cümlədən qonşu ölkələrlə sərhəd-keçid və gömrük rəsmiləşdirilməsinin sürətləndirilməsinə dair görülən tədbirlərdən danışıb. E.Süleymanov son dövrlər ölkədə aparılan əsaslı islahatlardan danışarkən "ASAN xidmət"in təcrübəsinin buna yaxşı nümunə olduğunu vurğulayıb. Ölkəmizə əlavə xarici turist axınının təmin olunması məqsədilə bu xidmətin fəaliyyətinin genişləndirildiyi və "ASAN viza"-nın təmin edildiyi bildirilib.

Səfir çıxışında, həmçinin Azərbaycanda nəqliyyat sektorunda həyata keçirilən mühüm infrastruktur layihələrindən danışıb. O, ölkəmizin regionun nəqliyyat-logistika qovşağına çevrilməsi istiqamətində Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və onun ərazisində təsis ediləcək azad ticarət zonasının oynayacağı roldan bəhs edib. E.Süleymanov Azərbaycan hökumətinin müasir İpək Yolunun canlandırılmasına fəal dəstək verdiyini diqqətə çatdıraraq, bu işdə mövcud infrastruktur layihələri ilə yanaşı, nəqliyyat sahəsinə məsul qurumların, o cümlədən "Azərbaycan Dəmir Yolları", "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" və "Silk Way" şirkətlərinin mühüm rolunu vurğulayıb. Azərbaycanın hava nəqliyyatı sahəsində də regionun lider ölkəsinə çevrildiyini deyən diplomat bu baxımdan "Azərbaycan Hava Yolları" və "Silk Way" aviaşirkətlərinin "Boeing" şirkəti ilə əməkdaşlığını xüsusi qeyd edib.

Gürcüstan, Türkiyə, Türkmənistan və Özbəkistanın ABŞ-dakı diplomatik nümayəndəliklərinin rəhbərləri çıxışlarında regionun nəqliyyat və tranzit potensialından tam istifadə olunması sahəsində Bakı-Tbilisi-Qars dəmir yolunun əhəmiyyətini vurğulayıb, onun qonşu ölkələr, eləcə də regionun digər dövlətləri arasında ticarət əlaqələrinin inkişaf etdirilməsinə və ticarət yollarının şaxələndirilməsinə töhfə verəcəyinə əminliklərini ifadə ediblər. Asiya ilə Avropa arasında yük daşımaları üçün məsafə, vaxt və xərc baxımından daha sərfəli olacaq bu dəmir yolunun iqtisadi faydaları ilə yanaşı, regionda yaşayan xalqlar arasında əlaqələrin daha da dərinləşməsinə xidmət edəcəyi qeyd olunub.

Tədbir çərçivəsində, həmçinin ABŞ dövlət katibinin köməkçisinin ticarət məsələləri üzrə müavini Pitr Haas, ABŞ-ın Ticarət Palatasının vitse-prezidenti Qari Litman, Ticarət Nazirliyinin beynəlxalq ticarət administrasiyasının direktoru Metyü Edvard və Xarici Özəl Sərmayə Korporasiyasının icraçı direktoru Kenet Angel çıxış edərək Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı münasibətilə təbriklərini çatdırıb və bunun böyük nailiyyət olduğunu vurğulayıblar. Bu layihənin region ölkələri arasında əməkdaşlığın dərinləşməsinə yardım etməklə yanaşı, ABŞ şirkətləri üçün yeni imkanlar açacağına inam ifadə edilib. Bu kontekstdə regionda irimiqyaslı infrastruktur layihələrinin reallaşması ilə bərabər, həmin dəhlizin rəqabətqabiliyyətliliyini artırmaq məqsədilə qeyri-fiziki infrastrukturun, o cümlədən yükdaşıma tariflərinin cəlbedici olması, sərhəd-keçid və gömrük sahəsində əməkdaşlığın vacibliyi bildirilib.

Dünya Bankının, Beynəlxalq Valyuta Fondunun, Asiya İnkişaf Bankının, akademik dairələrin və özəl sektor nümayəndələri Bakı-Tbilisi-Qars dəmir yolunun önəmini vurğulayıb, onun əməkdaşlıq üçün yeni imkanlar yaratdığını söyləyiblər.

Çıxışlardan sonra aparılan müzakirələr zamanı səfir E.Süleymanov yeni İpək Yolunun yalnız Çin ilə Avropa arasında əlaqələndirməyə deyil, regionun digər ölkələri arasında da əməkdaşlığa xidmət edəcəyini söyləyib. Diplomat buna misal olaraq, Azərbaycandan kənd təsərrüfatı məhsullarının Qazaxıstana və Mərkəzi Asiyanın digər ölkələrinə ixracının təşviqi üçün Aktauda inşa edilmiş Azərsun Logistika və İstehsalat Mərkəzi qeyd edilib. Eyni zamanda, xarici investisiyaların cəlb olunmasından danışılarkən Azərbaycan da daxil olmaqla region ölkələrinin nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən tərtib edilən hesabatlarda reytinq sıralamasında xeyli irəliləyərək mövqelərini yaxşılaşdırmasının vacib məqam olduğu qeyd edilib.

Aparılan ümumi müzakirələrdə belə bir ümid ifadə edilib ki, region ölkələri arasında uğurlu əməkdaşlıq Ermənistan üçün nümunə olmalı və rəsmi Yerevanın Azərbaycan torpaqlarının işğalına son qoyması və bu əraziləri tərk etməsi, doğma evlərindən didərgin düşmüş həmvətənlərimizin öz yurd-yuvalarına qayıtması, eləcə də bu ölkənin beynəlxalq hüququn prinsiplərinə riayət etməsindən sonra Ermənistan da regionda həyata keçirilən bu kimi layihələrdən bəhrələnə biləcək.

***Yusif Babanlı***

# ARDDA-DA “ƏDƏBİ DİLİN QORUNMASI VƏ DÜZGÜN TƏTBİQİ” MÖVZUSUNDA TƏDBİR KEÇİRİLİB

***Dövlət Dəniz Administrasiyasında “Azərbaycan ədəbi dilinin qorunması və düzgün tətbiqi” mövzusunda maarifləndirici tədbir baş tutub. Tədbirdə rəhbərlik və Mərkəzi Aparatda çalışan əməkdaşlar, həmçinin Administrasiyanın tabeliyindəki qurumların işçiləri iştirak ediblər.***



Bildirilib ki, ölkəmizdə dil siyasətinin formalaşdırılması, Azərbaycan dilinin dövlət dili kimi tətbiqi və ana dili olaraq dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilməsi, habelə beynəlxalq aləmdə nüfuzunun yüksəlməsi Ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Onun fəaliyyəti dövründə dilimizin qorunması, inkişafı və düzgün tətbiqi istiqamətində qəbul edilmiş “Azərbaycan Respublikasında dövlət dili haqqında” Qanun, habelə “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” 18 iyun 2001-ci il tarixli və “Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” 9 avqust 2001-ci il tarixli fərmanlar mühüm tarixi sənədlərdir.

1300 illik inkişaf yolu keçən Azərbaycan dilinin qədim tarixə malik zəngin dil kimi formalaşdığı, dünya dilləri arasında axıcılığı və söz ehtiyatı baxımından özünəməxsus yer tutduğu, eyni zamanda dövrün artan tələbləri nəzərə alınmaqla Azərbaycan dilinin inkişafının təmini və tətbiqinə xüsusi yer ayrılmasının dövlətimizin daim diqqət mərkəzində olduğu vurğulanıb. Bu istiqamətdə atılan ən önəmli addımlardan biri kimi Prezident cənab İlham Əliyevin “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı”nın təsdiqi haqqında 9 aprel 2013-cü il tarixli Sərəncamı barədə məlumat verilib. Qeyd olunub ki, həmin sərəncamla dil və nitq mədəniyyətinin yüksəldilməsi, Azərbaycan dilinin lüğət tərkibinin və qrammatik normalarının sistemləşdirilməsi, dövlət orqanlarında Azərbaycan ədəbi dilinin düzgün tətbiqi məqsədilə mütəmadi maarifləndirmə tədbirlərinin keçirilməsi vəzifə kimi qarşıya qoyulub.

Tədbirdə hüquqi aktların “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununun tələblərinə uyğun hazırlanması və sənədləşmə işinin Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq edilmiş “Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat”ın tələblərinə uyğun aparılması, habelə rəsmi yazışmalar zamanı Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş “Azərbaycan dilinin orfoqrafiya Qaydaları”nın tələblərinə əməl edilməsi barədə Administrasiyanın əməkdaşlarına müvafiq təlimatlar verilib. Azərbaycan ədəbi dilinin norma və üslubları, düzgün cümlə quruluşu, xüsusilə rəsmi yazışmalarda istifadə olunan rəsmi-işgüzar üslub, köməkçi nitq hissələri və durğu işarələrinin cümlədə düzgün istifadə qaydaları barədə çıxışlar dinlənilib.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# “ZIĞ” GƏMİ TƏMİRİ VƏ TİKİNTİSİ ZAVODU TƏKMİLLƏŞİR



















***“Zığ” Gəmi Təmiri və Tikintisi Zavodu təkmilləşir.***

Sənaye müəssisələrinin paytaxtın mərkəzindən köçürülməsi ilə bağlı Dövlət Proqramına uyğun olaraq Bulvar ərazisində yerləşən “Paris Kommunası” və “Zaqfederasiya” kimi tanınan gəmi təmiri zavodları sökülüb, Zığ şosesi yaxınlığında “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin strukturu olan “Zığ” Gəmi Təmiri və Tikintisi Zavodu inşa edilib. Zavodun təkmilləşdirilməsi işi bu gün də sürətlə davam edir. Belə ki, burada yeni sahə və sexlər tikilib. Zavodda beynəlxalq standartlara cavab verən müasir avadanlıqlar quraşdırılıb, eyni zamanda müəssisədə çalışanların iş şəraiti yaxşılaşdırılıb.

Zavod ərazisində sahəsi 3978 kvadratmetr olan yeni gövdə-qaynaq və mexaniki sexlər tikilib. Burada yeni 2 ədəd 10 tonluq, 2 ədəd 20 tonluq körpülü kranlar, 2 ədəd elektrik mühərrikli araba, torna karusel, mərkəzi emal və isgənə dəzgahları quraşdırılıb. Eyni zamanda, həmin sexdə ikimərtəbəli inzibati məişət bloku yaradılıb.

Zavoddakı yeniliklərin siyahısı bununla bitmir. Müəssisənin əvvəllər tullantıların toplandığı ərazisində uzunluqları müvafiq olaraq 400, 120, 130, 63 metr olan 1, 2, 3 və 4 saylı dənizkənarı yanalma körpüləri, üzərində kranaltı yollar tikilib. Portal və stasionar kranlar və 2 ədəd şpil quraşdırılıb. Yeni tikilən obyektlərin ətrafı abadlaşdırılıb.

Sahəsi 1971 kvadratmetr olan təmir sexi və kompressor binası da təzə inşa olunub. 1 ədəd 10 tonluq körpülü kran, 3 ədəd hava kompressoru yeni alınaraq quraşdırılıb. Qeyd edək ki, kompressorlar yeni inşa olunmuş sahələri, yanalma körpülərini və “Neptun” üzən tərsanəni sıxılmış hava ilə təmin edəcək gücə malikdir. Həmçinin yeni qazanxana binası müəssisənin istilik təchizatını və isti su tələbatını ödəyə bilən 2 ədəd istilik qazanı ilə təmin edilib.

Zavodun ərazisindəki yarımstansiya binası da yeni tikililərdəndir. Burada təzə 2 ədəd 1000 kilovolt-amper gücünə malik transformator, yüksək və aşağı gərginlikli açarlar və 1000 kilovolt-amper dizel generator quraşdırılıb.

Yeni tikilən obyektlərin hamısı beynəlxalq ekologiya tələblərinə və təhlükəsizlik normalarına cavab verir. Burada personalın təhlükəsiz işi üçün lazımi şərait yaradılıb. Ərazidə sahil işıqlandırma, yanğından mühafizə sistemləri, təhlükəsizlik kameraları quraşdırılıb. Zavodda işçilərin sağlamlığını təmin etmək üçün əməyin mühafizəsi qaydalarını əks etdirən lövhələr yerləşdirilib.

Qeyd edək ki, bölmə və sahələrdə quraşdırılan yeni avadanlıqlar Türkiyə, Rusiya, Belarus və İsveçin tanınmış brendlərinə məxsusdur.

Zavod ərazisində, həmçinin müasir standartlara cavab verən yeni yeməkxana, məişət binaları, işçilərin asudə vaxtlarının səmərəli təşkili üçün idman meydançası da tikilib.

Bütün bu yeniliklər isə zavodun ümumi fəaliyyətini daha effektiv etməyə, gəmilərin təmir prosesini sürətləndirməyə və keyfiyyətin artırılmasına xidmət göstərir.

# DÖVLƏT LİMAN NƏZARƏTİ ÜZRƏ İXTİSASLAŞMIŞ BEYNƏLXALQ QURUMLAR ƏMƏKDAŞLIĞIN, VAHİD SİSTEMİN YARADILMASININ VƏ MƏLUMAT MÜBADİLƏSİNİN İNKİŞAFINI SÜRƏTLƏNDİRƏCƏK

***Gəmilərin, onların avadanlığının və idarə olunmasının beynəlxalq müqavilələrin tələblərinə uyğunluğunun yoxlanılmasını həyata keçirən liman nəzarəti üzrə ixtisaslaşmış qurumların nümayəndələrinin və üzv dövlətlərin iştirakı ilə London şəhərində dövlət liman nəzarəti üzrə seminar keçirilib. Seminar iştirakçıları dövlət liman nəzarəti üzrə əməkdaşlığın və informasiya mübadiləsinin inkişaf etdirilməsi, həmçinin vahid sistemin yaradılması sahəsində təcrübələrini bölüşərək yeni layihə və təlimatları müzakirə ediblər. Tövsiyələr Beynəlxalq Dəniz Təşkilatına və liman nəzarəti üzrə ixtisaslaşmış beynəlxalq qurumların regional idarəetmə orqanlarına baxılması üçün təqdim edilmişdir.***



Liman nəzarəti üzrə ixtisaslaşmış beynəlxalq qurumlar tərəfindən tətbiq edilən yoxlama planı və həvəsləndirmə tədbirlərinin əsas məqsədi beynəlxalq qaydalara uyğunluğu təsdiq edilən gəmilərdə liman nəzarət yoxlamalarının sayının azaldılması, beynəlxalq konvensiyaların tələblərinə uyğun olmadığı müəyyən edilən gəmilərdə isə bu nəzarətin daha gücləndirilməsidir. Liman nəzarəti üzrə ixtisaslaşmış beynəlxalq qurumlar həyata keçirilən yoxlamalar haqqında illik hesabatları “Beynəlxalq Dəniz Təşkilatının Konvensiyalarının Tətbiq edilməsi üzrə Alt komitə”yə təqdim edir və informasiya mübadiləsinə dair razılaşmalara əsasən həmin məlumatlar Beynəlxalq Dəniz Təşkilatının Dəniz Nəqliyyatı üzrə Qlobal Məlumat Sistemi Məcmusuna (GISIS) daxil edilir.

Görüş iştirakçıları “qara, boz, ağ siyahılar” təsnifatının gəmilərin individual risk profili ilə əvəz edilməsini məqsədəmüvafiq hesab etdiklərini vurğulayıblar.

Seminarda beynəlxalq konvensiyaların tələblərinə uyğun olmadığı müəyyən edilən gəmilərin siyahılarının hazırlanması məqsədilə məlumat mübadiləsini asanlaşdıran regionlararası ümumi məlumat platformasını yaratmaq və vahid yanaşmanın təşviq etmək tövsiyə edilib.

Beynəlxalq Dəniz Təşkilatının “Liman nəzarəti üzrə prosedurlar” haqqında A.1052(27) nömrəli qətnaməsinə “Liman nəzarəti müfəttişinin etik davranış Qaydaları” üzrə 1 nömrəli əlavənin tətbiqinin asanlaşdırılması məqsədilə Beynəlxalq Dəniz Təşkilatının Konvensiyalarının Tətbiq edilməsi üzrə Alt komitə tərəfindən “Dövlət liman nəzarətinə dair gəmi kaptitanına məktub”un formasının hazırlanmasının təklif ediləcəyi vurğulanıb. Adıçəkilən sənədin hazırlanması, yoxlamanın həyata keçirilməsini və sənədin liman nəzarət müfəttişi ilə yanaşı, gəmi kapitanı tərəfindən imzalaması qaydalarını müəyyən edəcək. Seminar zamanı liman nəzarət yoxlamalarının nəticələrindən şikayətin verilməsi prosedurlarını asanlaşdırmaq məqsədilə GISIS portalının inkişaf etdirilməsi müzakirə edilib. Liman dövlətləri tərəfindən Beynəlxalq Dəniz Təşkilatı və Beynəlxalq Əmək Təşkilatına məlumatların təqdim edilmə prosedurlarının asanlaşdırılması məqsədilə GISIS portalında “bir pəncərə” sisteminin yaradılması məqsədilə BDT-nin katibliyinə BƏT katibliyi ilə müzakirələr aparması tövsiyə edilib.

Seminarın hər iki ildən bir keçirilməsi və növbəti seminarlarda digər məsələlərlə yanaşı, liman nəzarət müfəttişlərinin nəzarət yoxlaması zamanı kameralardan istifadə etməsi məsələsinin müzakirə edilməsi təklif edilib.

Xatırladaq ki, dövlət liman nəzarəti üzrə ilk anlaşma memorandumu (Dövlət liman nəzarəti üzrə Paris Anlaşma memorandumu) 1982-ci ildə imzalanıb, daha sonra Beynəlxalq Dəniz təşkilatı tərəfindən fəaliyyəti dəstəklənən, həmçinin Avropanın və Şimali Atlantikanın ərazilərini əhatə edən digər regional liman nəzarəti üzrə ixtisaslaşmış beynəlxalq qurumlar yaradılıb. Bunlara Tokyo, Latın Amerika, Karib hövzəsi, Qərbi və Mərkəzi Afrika, Qara dəniz, Aralıq Dənizi, Hindistan okeanı, Fars körfəzi və Amerika Birləşmiş Ştatları aiddir. Azərbaycan Respublikası dövlət liman nəzarəti üzrə Qara dəniz Anlaşma Memorandumunda müşahidəçi qismində çıxış edir.

# SƏFİR: "BAKI LİMANI AZƏRBAYCAN HÖKUMƏTİNİN SİYASƏTİNDƏ ÖLKƏNİN NƏQLİYYAT QOVŞAĞINA ÇEVRİLMƏSİ ÜÇÜN MÜHÜM YER TUTUR"



***Bakı Limanı Azərbaycan hökumətinin siyasətində ölkənin nəqliyyat qovşağına çevrilməsi üçün mühüm yer tutur.***

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, bu sözləri Fransanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri xanım Orelia Buşez nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə ilə Ələtdə tikilməkdə olan yeni Bakı Limanına səfəri zamanı deyib.

Nazir Ramin Quluzadə bildirib ki, Ələt qəsəbəsində tikilməkdə olan yeni Bakı Limanı Xəzər dənizi regionunun ən böyük limanıdır. Ərazidə tikintinin birinci fazası bitdikdən sonra limanın yük qəbuletmə qabiliyyəti ildə 15 milyon ton, sonuncu 3-cü fazanın inşası ilə isə 25 milyon ton və 1 milyon TEU konteyner olacaq.

Nazir, həmçinin qeyd edib ki, Bakı-Tbilisi-Qars dəmiryolu xətti və Ələt qəsəbəsində tikilməkdə olan yeni Bakı Limanı ölkənin ən böyük nəqliyyat layihələri olaraq, bərpa olunmaqda olan qədim İpək Yolunun ayrılmaz hissəsidir. Eyni zamanda nazir cari ilin yay aylarında Fransaya səfəri zamanı fransalı həmkarı ilə görüşdüyünü və telekommunikasiya, nəqliyyat sahəsində Azərbaycanın əməkdaşlığa hər zaman hazır olduğunu bildirib, Fransa şirkətlərini 5-8 dekabr tarixlərində baş tutacaq XXIII “Bakutel” sərgisinə dəvət edib.

“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC-nin baş direktoru Taleh Ziyadov Azərbaycanın tarixi İpək Yolunda oynadığı rolu, yeni limanın Ələtdə inşa olunmasının zərurəti, o cümlədən ölkə və regionun iqtisadiyyatına verəcəyi töhfələr barədə qonaqları məlumatlandırıb.

T.Ziyadov Fransa şirkətlərini yeni limanda birgə fəaliyyətə dəvət edib. Eyni zamanda baş direktor 2018-ci il mayın 8-11-də keçiriləcək və Bakı Limanının ev sahibliyi edəcəyi Dünya Limanları Assosiasiyasının (IAPH) illik toplantısı barədə səfirə məlumat verib.

Səfir Orelia Buşez öz növbəsində bildirib ki, Ələt qəsəbəsində tikilməkdə olan yeni Bakı Limanı layihəsinin inşasını yaxından izləyir. Onun sözlərinə görə, qeyd olunan liman Azərbaycan hökumətinin siyasətində ölkənin nəqliyyat qovşağına çevrilməsi üçün mühüm yer tutur və Fransa həm iqtisadi, həm də siyasi cəhətdən qeyd olunan layihəni dəstəkləyir. Səfir ölkəsinin böyük limanları olan “Marsel”, “Port of Le Havre” və “Dyunkerk” limanları ilə Bakı Limanının əməkdaşlıq etməsində maraqlı olduqlarını vurğulayıb.

# ƏFQANISTANA GƏLƏN YÜKLƏRİN BİR QİSMİ YENİ BAKI LİMANINDAN KEÇƏRƏK BU ÖLKƏYƏ DAXİL OLUR

***Azərbaycanda səfərdə olan Əfqanıstan İslam Respublikasının maliyyə naziri Əklil Əhməd Hakiminin rəhbərlik etdiyi nümayəndə heyəti “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC-də olub.***



Tanışlıq zamanı qonaqlara Ələt qəsəbəsində tikilməkdə olan yeni Bakı Limanının inkişaf konsepsiyasının ölkəmizin qeyri-neft sektorunun inkişafına, ticarət dövriyyəsinin artmasına ciddi töhfə verəcəyi bildirilib.

Bakı Limanının baş direktoru Taleh Ziyadov 2011-ci ildə start götürən yeni Bakı Limanının (Ələt qəsəbəsi) tikintisinin üç fazadan ibarət olacağı barədə məlumat verərək bildirib ki, bütün fazalar bitdikdən sonra limanın ümumi yükaşırma həcminin 25 milyon ton ümumi yük və 1 000 000 TEU-ya qədər genişləndiriləcəyi gözlənilir.

Eyni zamanda qonaqların diqqətinə çatdırılıb ki, son illər ərzində Bakı Limanı tərəfindən liman əməliyyatlarının aparılmasında şəffaflığın təmin edilməsi, yeni innovativ texnologiyanın tətbiqi və prosedurların beynəlxalq standartlara uyğun aparılması istiqamətində mühüm işlər görülüb və bu işlər davam etməkdədir.

Əfqanıstanın maliyyə naziri Əklil Əhməd Hakimi öz növbəsində vurğulayıb ki, ölkəsinin ticarət dövriyyəsində Bakı Limanı mühüm yer tutur, Əfqanıstana gələn yüklərin bir qismi yeni Bakı Limanından keçərək ölkəyə daxil olur.

# “DÜNYA DƏNİZÇİLİK UNİVERSİTETİNDƏ OXUMAQ ASAN OLMASA DA... "

***Müsahibimiz “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin istedadlı və perspektivli gənclərin xarici ölkələrin aparıcı dənizçilik universitetlərində təhsil alması məqsədi ilə təsis etdiyi Təqaüd Proqramının qalibi, hazırda proqram üzrə Dünya Dənizçilik Universitetində (World Maritime University) təhsil alan Nərminə Cabbarovadır.***




**- Nərminə xanım, artıq yarım ildir ki, İsveçdəsiniz. Təhsil aldığınız universitet və ixtisas barədə təəssüratlarınızı eşitmək maraqlıdır.**

- Öncə bizə bu imkanı yaratdığına və dəstək olduğuna görə başda “AXDG” QSC-nin sədri Rauf müəllim olmaqla, əməyi keçən hər kəsə təşəkkürümü bildirirəm. Qeyd edim ki, oxuduğum Dünya Dənizçilik Universiteti Birləşmiş Millətlər Təşkilatının (BMT) ixtisaslaşmış orqanı Beynəlxalq Dəniz Təşkilatı tərəfindən təsis edilib. Dünyada dənizçilik sahəsində yüksək və keyfiyyətli təhsilə malik mütəxəssislərin sayının artırılması universitetin qarşıya qoyduğu əsas məqsəddir. Mən bu universitetdə “Dəniz daşımalarının idarə olunması və loğistika” ixtisası üzrə təhsil alıram. Bu ixtisas daşımaların müasir tələblərə cavab verərək effektiv idarəedilməsi ilə bağlı bir çox məsələni özündə əks etdirir. Bura limanların idarəedilməsi və daşımalardakı rolu, strateji inkişafa maneə törədən problemlərin analiz yolu ilə həlli, istismar və kommersiya məsələləri, maliyyə risklərinin idarə edilməsi, marketinqin daşımalara tətbiqi, daşınma müqavilələri və s. aiddir. Bir sözlə, çox əhatəli ixtisasdır. Digər tərəfdən, “Dəniz daşımalarının idarə olunması və loğistika” Dünya Dənizçilik Universitetinin ən çətin ixtisası hesab olunur. Amma mən etimadı doğrultmaq və ölkəmizin adını uca tutmaq üçün əlimdən gələni edirəm.





**- Ümumiyyətlə, oxuduğunuz universitetdə sizi daha çox nələr qane edir?**

- Dünya Dənizçilik Universitetinin qaneedici tərəfləri çoxdur. Bir neçəsini vurğulaya bilərəm. Burda dərslər dənizçilik sənayesinin son illərdəki dəyişikliklərinə uyğun keçirilir. Bu da tələbələri lazım olan bilik və bacarıqlarla təmin edir. Təhsil yalnız professorların verdiyi ümumi biliklərə əsaslanmır. Əldə olunan biliklərin tətbiqinə geniş imkanlar yaradılır. Bundan başqa, tələbənin analitik düşüncə qabiliyyətinin inkişafı da vacib sayılır. Müxtəlif ölkələrin təcrübəsini öyrənmək imkanımız var. Məsələn, bizim ixtisasın tələbələri Birləşmiş Krallıqda (London), Almaniyada (Hamburq) və Yunanıstanda təcrübə keçəcəklər. Universitetə tez-tez digər təşkilatlardan, assosiasiyalardan, şirkətlərdən beynəlxalq səviyyədə tanınmış ekpertlər dəvət olunur. Onlar mühazirələri ilə dərslərimizdə iştirak edirlər. Ən son Amerika Gəmiçilik Bürosunun prezidenti cənab Kris Shernicki “Texnologiyanın inkişafı gəmiçiliyin gələcəyini necə formalaşdırır” mövzusunda təqdimatla çıxış edib. Universitetin həm müəllim heyəti, həm də tələbələr dünyanın müxtəlif ölkələrindən formalaşıb. Bu da dostluq əlaqələrimizin genişlənməsinə və gələcəkdə həmin ölkələrin nümayəndələri ilə əməkdaşlığa imkanlar yaradacaq. Dünya Dənizçilik Universiteti böyük kitabxana resurslarına malikdir. Bundan başqa, 100000-dən çox elektron kitab, İMO sənədləri, HeinOnline və s. resurlarından istifadə üçün hər birimizin giriş icazəmiz var.



**- İsveçdə dərsdənkənar vaxtlarınızı necə keçirirsiniz? Ümumiyyətlə, buna imkan olurmu?**

- Düzü, dərslərimizin çətinliyinə görə asudə vaxtımız çox olmur. Hər iki həftədən bir imtahan veririk. Bəzən imtahanlararası əlavə təqdimatlara və digər tapşırıqlara da hazırlaşırıq. Amma imkan tapan kimi, İsveçin başqa şəhərlərinə və digər Avropa ölkələrinə səyahət edirəm. Həftəsonları dostlarımızla milli yeməklərimizi bir-birimizə təqdim edir və əylənirik. Bundan başqa, universitetdə müxtəlif idman növləri ilə məşğul olmaq üçün gözəl şərait var. Ümumiyyətlə, əminəm ki, burada təhsil aldığım müddət yaddaşımda həyatımın ən unudulmaz günləri kimi qalacaq.

**- Bəs, sosial layihələrdə iştirak edirsinizmi?**

- Bəli, sosial layihələrdə iştirak edirəm və bu, çox vacibdir. Çünki, insan bu layihələrə qatılmaqla həm başqalarına kiçik də olsa töhfə verir, həm də özünü inkişaf etdirir. Hazırda təhsil aldığım universitetdə Tələbə Şurasının Məzun və Beynəlxalq gün üzrə sədriyəm. Bundan əlavə, Qadın Assosiasiyasında layihə kordinatoru üzrə çalışıram. Assosiasiyanın əsas məqsədlərindən biri dənizçilik sahəsində qadınların təhsil almasına və bu sahədə daha çox uğur qazanmalarına dəstək olmaqdır. Ölkəmizə qayıtdıqdan sonra da bu layihələrdə, regional digər assosiasiya və ya təşkilatlarda iştirakımı davam etdirmək istəyirəm.

**- Son olaraq təhsilini xaricdə davam etdirmək istəyən dənizçilərə sözünüz?**

- Öncə onu deyim ki, yaşlarından asılı olmayaraq xaricdə təhsil almaq arzuları varsa, bunun arxasınca getsinlər. Yaş məsələsini niyə xüsusi vurğulayıram? Çünki oxumaq heç zaman gec deyil. Burada təhsil alanların orta yaşına nəzər salsaq 30-dan çox olduğunu görərik. Xüsusilə, gənc dənizçilərimizə (hazırda Akademiyada təhsil alan və məzun olan) demək istərdim ki, vaxtınızdan düzgün istifadə edin. Vaxt elə bir şeydir ki, göz qırpımında gedir və geriyə dönüb baxdığımızda boşluq görməmək üçün çox çalışmalıyıq. Təbii ki, qarşımıza maneələr çıxacaq, amma nəyisə etmək istəyiniz bu maneələrdən üstün olmalıdır. Ən əsas problem maddi məsələdə yaranır, bunun üçün də müxtəlif təqaüd proqramlarına müraciət etmək olar.

Təbii ki, xaricdə təhsil almaq beynəlxalq əmək bazarına qapı açacaq. Amma, fikrimcə, qazandığımız biliklərlə öncə ölkəmizə töhfə verməyə çalışmalıyıq. Bu, çox vacib məsələdir.

# “ALDIĞIM TƏHSİLDƏN TAM MƏMNUNAM”










***“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin ötən il elan etdiyi “Təqaüd Proqramı”nın qaliblərindən biri, hazırda proqram üzrə İsveçin Malmö şəhərində yerləşən Dünya Dənizçilik Universitetində magistr təhsilı alan Aqşin Muxtarov “Seanews.az”-ın suallarını cavablandırıb.***

**- Aqşin, oxuduğun universitet və ixtisas barədə nə deyə bilərsən?**

- Bizi daim diqqətdə və maraq dairəsində saxladığı üçün başda “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin sədri Rauf müəllim olmaqla, Gəmiçiliyin bütün əməkdaşlarına təşəkkür edirəm. Deyərdim ki, Dünya Dənizçilik Universitetinə (World Maritime University) gəlib çıxmağımızda bütün QSC kollektivinin dəstəyini görmüşük. Təhsil aldığım universitet 1983-ci ildə İMO Assambleyasının qərarı ilə yaradılıb. Məqsəd həmin təşkilatın “Təmiz okeanlarda xətərsiz, təhlükəsiz və effektiv dənizçiliy”ini təhsil, araşdırma və bacarıqların genişləndirilməsi yolu ilə təmin etməkdən ibarətdir. İxtisasım “Dənizçiliyin idarə olunması və logistika”dır. Dəniz sənayesinin inkişafı üçün vacib ixtisas sayılır.

**- Dərslər çətin deyil?**

- Magistraqədərki üç aylıq kurs daha asan idi. Amma proqramın ilk hissəsi başlayandan sonra işlər tamam dəyişdi. Deməkolar, hər üç həftədən bir imtahandır. Tədris olunan dərsi yaxşı mənimsəmək üçün isə minimum 200-300 səhifəlik materialı oxumalısan. Oxumaqdan əlavə, həmin materialları yaxşı dərk etməlisən. İşin çətin tərəfi odur ki, dərsin biri bitsə də, verdikləri tapşırıq yeni dərslə paralel inkişaf edir. Bu zaman iki fənnə və iki imtahana eyni vaxtda hazırlaşmalı olursan. Bu isə ikiqat çətindir.

**- Dünya Dənizçilik Universitetində təhsil almaq sizə nə verir? Ümidlərinizi doğruldurmu?**

- Universitet müasir tələblərə tam cavab verir, hətta yeni trendlər yaratmaq qabiliyyətinə malikdir. Burda dərslərin mövzusu gündəmə uyğun təyin olunur. Məhz bu, Dünya Dənizçilik Universitetinin ən sevdiyim tərəflərindəndir. Sözsüz, burada İMO-nun da rolunu danmaq olmaz. Çünki, universitet birbaşa İMO-nun və eləcə də beynəlxalq dənizçiliyin gündəmində olan vacib məsələləri nəzərə alır, təhsil sistemini buna uyğunlaşdırır. Ümumiyyətlə, aldığım təhsildən tam məmnunam. İnteraktiv təhsil sistemi, təcrübəli müəllim heyəti tədrisin keyfiyyətini daha effektiv edir və səmərəliliyini artırır. Bununla yanaşı, ölkə xaricində təhsil mənə müxtəlif xalqların mədəniyyəti ilə yaxından tanış olmaq imkanı yaradır, dünyagörüşümü artırır, bu isə özlüyündə qiymətsiz bir təcrübəyə çevrilir.

**- Dərsdənkənar vaxtınızı necə keçirirsiniz? Sosial layihələrə qatılırsınızmı?**

- Əslində mümkün qədər daha çox oxumağı və öyrənməyi üstün tuturam. Bununla yanaşı, sosial layihələrdən də geri qalmamağa çalışıram. Mən oxuduğumuz ixtisasın nümayəndəsi (SML-course representative) seçilmişəm. Bu da avtomatik məni sosial layihələri həyata keçirmək məqsədiylə yaradılmış “Tələbə konsulu”nun (student council) nümayəndəsi etmiş olur.

**- Təhsilini xaricdə davam etdirmək istəyən dənizçilərə məsləhətiniz nə olardı?**

- Dünyada dənizçilik üzrə kifayət qədər xüsusi universitetlər var. World Maritime University də bu siyahıda ön pillələrdən birini tutur. Eləcə də İngiltərənin, Hollandiyanın və ya Avstraliyanın dənizçilik üzrə dərin ixtisaslaşmış universitetləri mövcuddur. Lakin, maddi məsələlər dənizçilərin və bir çox tələbənin xaricdə təhsillə bağlı planlarının üstündən xətt çəkir. Bununla belə, əksər universitetlərdə müxtəlif növ sponsorluqlar mövcuddur. Ona görə, məsləhət görərdim ki, həvəsdən düşmədən dənizçilik universitetlərini və orada oxuya bilmək üçün sponsorluq əldə etmək imkanlarını daha yaxşı araşdırsınlar. Gəncləri daha çox motivasiyalı görmək istərdim. Qarşıya qoyulmuş məqsədə çatmaq üçün isə var-qüvvələrini əsirgəməməlidirlər.

*Rövşən Abdurəhmanov*



## AZƏRBAYCAN ƏHALİSİNİN SAYI 9875273 NƏFƏRƏ ÇATIB

***İlin əvvəlindən Azərbaycan əhalisinin sayı 65292 nəfər və ya 0,7 faiz artaraq oktyabrın 1-i vəziyyətinə 9875273 nəfərə çatıb.***

Dövlət Statistika Komitəsindən bildiriblər ki, bir kvadratkilometrə düşən əhalinin sıxlığı 114 nəfər olub, əhalinin ümumi sayının 53,0 faizini şəhər, 47,0 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir. Hazırda hər 1000 kişiyə 1006 qadın düşür.

Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən cari ilin yanvar-sentyabr aylarında ölkə üzrə 107459 doğulan körpə qeydə alınıb və əhalinin hər 1000 nəfərinə bu göstərici 14,7 təşkil edib. Doğulan körpələrin 53,1 faizi oğlan, 46,9 faizi isə qız uşaqlarından ibarət olub. Körpələrdən 1918-i əkiz, 33-ü üçəm doğulanlardır.

Doqquz ay ərzində ölkədə 43089 ölüm halı qeydə alınıb və əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 5,9 təşkil edib. Qeydiyyat şöbələri tərəfindən 2017-ci ilin yanvar-sentyabr aylarında 47388 nikah və 10977 boşanma halları qeydə alınıb və əhalinin hər 1000 nəfərinə nikahların sayı 6,5, boşanmaların sayı isə 1,5 olub. Bu ilin 9 ayı ərzində Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün 2299 nəfər Azərbaycana gələn, 1377 nəfər isə Azərbaycandan gedən qeydə alınaraq, miqrasiya saldosu müsbət 922 nəfər təşkil edib.




## BAKI-TBİLİSİ-QARS DƏMİR YOLU ERMƏNİSTANIN İNFRASTRUKTUR LAYİHƏLƏRİNİ İFLASA UĞRADIB

***Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun istifadəyə verilməsi Ermənistandakı bir sıra infrastruktur layihələrinin reallaşdırılmasına imkan verməyəcək. Artıq bir neçə layihə iflasa uğrayıb.***

BTQ-nin açılışından sonra Ermənistanda həyata keçirilən və ya reallaşdırılması nəzərdə tutulan layihələrin bir neçəsi aktuallığını itirib.

Ermənistan mətbuatı yazır ki, bu ölkə üçün mühüm əhəmiyyət kəsb edən “Şimal-Cənub” avtomagistralı layihəsinin reallaşması artıq şübhə doğurur. Bildirilir ki, 2009-cu ilin sentyabrında Ermənistan Asiya İnkişaf Bankı ilə bu yolun tikintisi üçün kredit müqaviləsi imzalayıb. Müqaviləyə əsasən, magistral yolun tikintisi 2016-cı ildə başa çatdırılmalı idi. Amma tikinti işlərinə müqavilə imzalandıqdan üç il sonra başlanılıb. 2012-ci ildə yolun az bir hissəsi tikilib, layihənin qiyməti isə artıb. 2012-ci ilin sentyabrında layihənin qiyməti 1 milyard ABŞ dolları olsa da, indi onun qiyməti 2 milyard dollardır. Hazırda hökumət yolun tikintisi üçün əlavə vəsait axtarır. Ermənistanın nəqliyyat naziri Vaan Martirosyan deyib ki, avtomagistralın Artaşat-Meğri (350 kilometr) hissəsinin tikintisi üçün 1,5 milyard dollar tələb olunur. Yolun tam istifadəsi üçün daha çox vəsait lazımdır.

Ermənistan hökuməti hesab edir ki, beynəlxalq maliyyə təşkilatları artıq bu layihəyə investisiya yatırmaq istəmirlər.

Ekspertlərin fikrincə, “Şimal-Cənub” avtomagistralının tikintisi artıq sual altındadır. Bir neçə ildən sonra isə bu yol, ümumiyyətlə, mahiyyətini itirəcək. Ona görə ki, bu yol Azərbaycanın nəqliyyat şəbəkəsi ilə rəqabətə davam gətirə bilməyəcək və rentabelli olmayacaq. Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı və ilk konteyner qatarının mənzil başına vaxtında çatması Ermənistanı şoka salıb. Əvvəllər BTQ-nin tikilməyəcəyi, beynəlxalq maliyyə qurumlarının bu layihəyə investisiya ayırmayacaqları barədə fikirlər səslənirdi. Amma Azərbaycan hökumətinin qətiyyəti və səyi nəticəsində yolun tikintisi başa çatdırıldı. Bu isə öz növbəsində Ermənistanın nəzərdə tutduğu layihələrin iflası deməkdir.

*Xətayi Əzizov*

# DƏNİZ AKADEMİYASINDA MÜLKİ MÜDAFİƏ ÜZRƏ TƏLİM KEÇİRİLİB

***Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Qoşunlarının Mülki müdafiə idarəsi Azərbaycan Dövlət Dəniz Akademiyasında mülki müdafiə üzrə nümunəvi təlim keçirib.***

Təlim Akademiyanın illik mülki müdafiə tədbirlər planına müvafiq rəhbər, tələbə, müəllim-professor və işçi heyətinin iştirakı ilə baş tutub.

Tədbirdə Mülki müdafiə idarəsinin rəisi polkovnik V.Tahirov, Mərkəzi mülki müdafiə kurslarının rəisi polkovnik A.Qəribov, Mülki müdafiənin təşkili və planlaşdırılması şöbəsinin rəisi mayor R.Quliyev, səyyar kimya kəşfiyyatının rəisi leytenant O.Cəfərov və Mülki müdafiə idarəsinin digər mütəxəssisləri iştirak ediblər.

Təlimdə əsas məqsəd fövqəladə hadisələrin baş vermə səbəbləri, nəticələri və xilasetmə işlərinin təşkili və aparılması qayda və üsullarını əməkdaşlara çatdırmaqdır. Mülki müdafiə idarəsinin əməkdaşlarının əyani vəsait kimi təqdim etdikləri müasir fərdi mühafizə vasitələri və avadanlıqları əyani izah edilməklə nümayiş olunub. Tədbirin sonunda Fövqəladə Hallar Nazirliyinin strukturlarının iştirakı ilə 2015-ci ildə keçirilmiş "Xəzər-2015" komanda-qərargah təliminin video filmi göstərilib.








# VENESİYA İRİ SƏYAHƏT GƏMİLƏRİNİN ŞƏHƏRİN MƏRKƏZİNƏ DAXİL OLMASINA QADAĞA QOYUR

***Venesiya öz tarixi binalarını qorumaq üçün iri səyahət gəmilərinin şəhərin mərkəzinə daxil olmasına qadağa qoyur.***

İtaliyanın "thelocal.it" saytı xəbər verir ki, ölkənin nəqliyyat və infrastruktur naziri Graçiano Delrio səyahət gəmilərinin tezliklə Venesiyanın mərkəzindən uzaqlaşdırılacağını bəyan edib.

İtaliya hökuməti çəkisi 55 min tondan çox olan iri səyahət gəmilərinin Venesiyanın tarixi mərkəzindən şimal-qərbdə yerləşən Marqera sənaye limanına yan almasına qərar verib.

Venesiyanın Bələdiyyə başçısı Luici Brunyaro deyib: "Biz YUNESKO-ya və bütün dünyaya bildirmək istəyirik ki, bu problemin həlli yolunu bilirik".

Nəqliyyat naziri Qrasiano Delrio bu ilin iyulunda təsdiq edilmiş birinci planı elan edərək, yeni marşrutun dörd il ərzində açılacağını söyləyib.

***Asiman Əsədov***

# ENERJİYƏ TƏLƏBAT 2040-CI İLƏDƏK 30 FAİZ ARTACAQ



***Qənaət tədbirlərinə və yeni texnologiyaların tətbiqinə baxmayaraq, 2040-cı ilədək dünyada enerjiyə tələbat 30 faiz artacaq. Artım hazırda Çinin və Hindistanın birgə tələbatına bərabər olacaq.***

Beynəlxalq Enerji Agentliyinin (IEA) yaydığı "Dünya enerji icmalı" adlı hesabatda qeyd edilir ki, Avropa, ABŞ və Yaponiyada yaxın gələcəkdə enerjiyə tələbat azalsa da, Hindistan və Çin kimi ölkələrdə ciddi şəkildə artacaq. Artan enerji tələbatının ən böyük hissəsi Hindistanın payına düşəcək (1 trilyon ton xam neft ekvivalenti). Sonrakı yerlərdə Çin (790 milyon ton), Afrika qitəsi (485 milyon ton), Yaxın Şərq (480 milyon ton) və Cənub-Şərqi Asiya (420 milyon ton) dayanır. Əlavə enerji tələbatının üçdə iki hissəsi Asiya ölkələrinin payına düşəcək.

Agentliyin proqnozuna görə, tələbatın artımı ilə yanaşı, enerji daşıyıcılarının tərkibində də dəyişiklik olacaq. Enerji daşıyıcıları içərisində ən çox ehtiyac təbii qaza olacaq. Eyni zamanda, bərpaolunan enerji mənbələrindən istifadə də geniş vüsət alacaq. Enerji artımının 40 faizi bərpa olunan enerji mənbələrinin hesabına təmin olunacaq. Bununla da kömür istehsalı tənəzzülə uğrayacaq.

Hesabatda, həmçinin qeyd edilir ki, xam neftə tələbat artsa da, tədricən bu yanacaq növünə ehtiyacın azalması müşahidə olunacaq. Eyni zamanda, atom enerjisinə maraq öz qüvvəsini saxlayacaq. 2030-cu ildə Çin dünyanın ən böyük nüvə enerjisi istehsalçısı kimi ABŞ-ı geridə qoyacaq.

# XƏZƏR DƏNİZİNDƏ SUYUN SƏVİYYƏSİNİN ENMƏSİ EKSTREMAL HAL DEYİL

***Xəzər dənizində suyun səviyyəsinin bir qədər azalması ekstremal hal deyil. Apardığımız kompleks araşdırmalar bir neçə onillikdən sonra Xəzər dənizini nələr gözlədiyini dəqiq proqnozlaşdırmağa imkan verəcək. Belə bir təhlükə var ki, Azərbaycan torpaqlarının bir hissəsi səhralaşmağa məruz qala bilər. Qəribə də olsa bu, Xəzər dənizinin səviyyəsinin dəyişməsi ilə bağlıdır.***



Bu fikirləri Azərbaycan Coğrafiya Cəmiyyətinin prezidenti, AMEA-nın akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun direktoru, akademik Ramiz Məmmədov AZƏRTAC-a müsahibəsində bildirib. R.Məmmədov Xəzər dənizinin Xəzəryanı ölkələr və Azərbaycan üçün əhəmiyyəti, hazırkı vəziyyəti və gələcək taleyi ilə bağlı fikirlərini bölüşüb.

"Bu yaxınlarda "National Geographic" jurnalında yazıblar ki, tezliklə Azərbaycan ərazisinin üçdə iki hissəsi suya qərq olacaq. Mən buna əsla inanmıram. Belə bir proqnozu 1992-ci ildə Xəzər problemləri üzrə idarələrarası elmi şuranın sədri və A.M.Obuxov adına Fizika İnstitutunun direktoru, Rusiya Elmlər Akademiyasının həqiqi üzvü Georgi Qolitsın vermişdi. O, hətta Azərbaycan tərəfinə xəbərdarlıq teleqramı göndərmişdi ki, bilin, Qız qalasının bir hissəsi suyun altında qalacaq. Lakin son altı yüz il ərzində belə hadisə olmayıb. Su Qız qalasının ətəyinə bir qədər yaxınlaşıb. Aparılmış tədqiqatlara görə, son üç min ildə Xəzər dənizinin səviyyəsinin dəyişməsi amplitudası 15 metrdən çox olmayıb", - deyə akademik bildirib.

1978-ci ildən 1996-cı ilədək Xəzərin səviyyəsinin 2,5 metr qalxması Xəzəryanı dövlətlərə, o cümlədən Azərbaycana 2 milyard ABŞ dollar miqdarında ziyan vurmuşdu. Bu hadisəni şərh edən akademik deyib ki, Qazaxıstanda neft buruqları, Azərbaycanda isə neft platformaları hazırlanan zavodun stapelləri su altında qaldı. Bakı bulvarındakı ekzotik ağaclar məhv oldu. İtkilər həqiqətən böyük idi, lakin bunun təqsiri təbiətdə deyil, inadkarlıq edən insanlardadır. Xəzər dənizinin səviyyəsi adətən 30-40 santimetrə qədər qalxıb enir. Buna səbəb dənizə tökülən çayların suyu, dəniz səthindən suyun buxarlanmasıdır. 1837-ci ildən Xəzərin səviyyəsi ilə bağlı müşahidələr aparılır. Məlum olub ki, dəniz səviyyəsinin dəyişmələri 11 il dövriliklə baş verir. "Bizim fikrimizcə, bu, günəşin aktivlik dövrləri ilə bağlıdır. Bədbin proqnozlarla heç vaxt razılaşmamışam və indi də razılaşmıram. İqlimə dair 1993-cü ildə Parisdə, 1995-ci ildə Tehranda keçirilmiş konfranslarda çıxış edib demişdim ki, Xəzər dənizinin səviyyəsinin qalxması tezliklə dayanacaq və kiçik tərəddüdlərlə sabitləşmə dövrü başlanacaq. Belə də oldu", - deyə akademik qeyd edib.

Coğrafiya İnstitutunun əsas elmi istiqamətlərindən birinin Xəzər dənizi üzrə aparılan tədqiqatlar olduğunu vurğulayan R.Məmmədov elmi-tədqiqat gəmisinin olmamasının bu sahədə müəyyən çətinliklər yaratdığını bildirib: "Amma bunun da çıxış yolu var. Belə ki, ətraf mühit üzrə müasir tədqiqatlar başlıca olaraq süni peyklərdən alınan məlumatlara əsaslanır. Azərbaycanın öz peyki ilə kosmik orbitdən Xəzər dənizi də daxil olmaqla, ölkə ərazisinin çəkilişi aparılır. Biz də həmin məlumatlardan istifadə edərək Xəzər dənizinin ekoloji monitorinqini aparır və hidrofiziki xassələrini öyrənirik. Peyk məlumatları Xəzərin səviyyəsinin intensiv dəyişməsi (qalxıb-enməsi) fonunda sahil zonası landşaft-geomorfoloji şəraitində baş verən dəyişmələri öyrənmək imkanı yaradır. Bu tədqiqatlardan məqsəd sahil zonasının mənimsənilməsinin strateji əsaslarını müəyyənləşdirməkdir".

İnstitutun digər tədqiqat istiqamətlərindən biri landşaft planlaşdırılmasıdır. Avropa İttifaqı üçün də yeni istiqamət olan bu tədqiqatlar davamlı inkişaf baxımından müəyyən ərazinin inkişaf planını verməkdən ibarətdir. Məsələn, "Azərbaycan Respublikasının Samur-Yalama Milli Parkının yaradılması haqqında" Prezident Sərəncamı imzalanmazdan əvvəl institut həmin üsulla Milli Parkın əhatə edəcəyi ərazinin ilkin vəziyyətini qiymətləndirib.

İnstitutda qlobal iqlim dəyişmələri ilə bağlı elmi tədqiqat işlərinin də aparıldığını bildirən R.Məmmədov deyib: "İqlim proqnozunu hazırlamaq olduqca çətin və mürəkkəb məsələdir, bu işlə adətən beynəlxalq təşkilatlar məşğul olur. Biz əsasən iqlim dəyişmələrinin Azərbaycan ərazisində lokal təzahürlərini qiymətləndirməklə məşğuluq. Bu istiqamətdə görülən işlərdən biri də Əmlak Məsələləri Dövlət Komitəsinin sifarişi ilə 66 inzibati rayonda torpaqların aqroiqlim ehtiyatlarının qiymətləndirilməsidir".

Akademik bildirib ki, Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən, Coğrafiya İnstitutunda "Azərbaycan Respublikasının fövqəladə hallar atlası" nəşrə hazırlanır. İlkin mərhələdə yol xəritəsi tərtib olunub, müvafiq qurumların nümayəndələri ilə müzakirələr aparılıb. Atlasa bir sıra xəritələr - texnogen fövqəladə halların xəbərdarlığı və nəticələrin ləğvi, təbii təhlükə və risklər, fövqəladə halların bioloji-sosial, aqroiqlim təhlükə və riskləri xəritələri daxildir. İnstitut tərəfindən fövqəladə halların artıq 10 baza xəritəsi tərtib olunub.

Hazırda institutda "Türk dünyası coğrafiyası" çoxcildliyi də hazırlanır. Bu barədə məlumat verən R.Məmmədov qeyd edib ki, may ayında Bakıda, oktyabr ayında isə İzmirdə Türkiyə-Azərbaycan Coğrafiya günləri keçirilib. Əsas məqsəd Azərbaycan və Türkiyə coğrafiyaşünas alimləri arasında elmi tədqiqat işlərində əlaqələri daha da möhkəmlətmək, hər iki respublikanın təbii şəraitini, təbii ehtiyatlarını, demoqrafik proseslərini, iqtisadi inkişaf səviyyələrini və istiqamətlərini qarşılıqlı surətdə, birgə öyrənməkdir. Həmin tədbirlər zamanı R.Məmmədov "Türk dünyası coğrafiyası" çoxcildliyinin yaradılması ideyasını gerçəkləşdirmək təklifini irəli sürüb və onun təşəbbüsü qəbul olunub.

Akademik bildirib ki, müasir coğrafiya təbii prosesləri, onların dəyişmə qanunauyğunluqlarını, inkişafını, yer səthində əhali məskunlaşmasını, sənayenin yerləşməsini öyrənən həm fundamental, həm də tətbiqi elmə çevrilib. Hazırda coğrafiya elminin funksiyası yer səthinin hər kvadratmetrini öyrənib ondan səmərəli istifadə etməyin yollarını göstərməkdir. Bu gün sosial-iqtisadi həyatın, planlaşdırmanın elə bir sahəsi yoxdur ki, orada coğrafi məlumatlardan istifadə edilməsin.

Qeyd edək ki, akademik Ramiz Məmmədov Azərbaycanda və dünyada Xəzər dənizi problemləri üzrə tanınmış alim və mütəxəssisdir. Onun elmi tədqiqatlarının əsasları bilavasitə Xəzər dənizinin ən aktual ekocoğrafi problemlərinə - hidrofizikasına, hidrologiyasına, atmosferlə dənizin qarşılıqlı təsirinə, dənizdə turbulent mübadilə və turbulent diffuziyaya, iqlim dəyişmələri və Xəzər dənizinin qarşılıqlı əlaqəsinə, ekocoğrafi çirkləndiricilərin dəniz akvatoriyasında yayılmasının hidrocoğrafi modelinin yaradılmasına həsr olunub. Alimin tədqiqat sahələrinə Kür-Araz hövzəsinin transsərhəd su problemləri, Azərbaycanda səhralaşma prosesinin qloballaşması, landşaft planlaşdırılması və ətraf mühitin mühafizəsi kimi klassik problemin həlli də daxildir.

# YENİ BÖYÜK LİMANIN TİKİNTİSİ ÜÇÜN BORC VERƏCƏK

***Yaponiya yeni liman obyektlərinin və böyük dəniz şəbəkəsinin tikintisi üçün İndoneziyaya təqribən 120 milyard yen məbləğində borc verəcək.***




NHK telekanalı bildirir ki, yeni liman paytaxt Cakartadan 120 kilometr şərqdə, Patimban adlı ərazidə inşa olunacaq. Onun İndoneziyanın ən böyük limanlarından biri olacağı gözlənilir.

Patimbanın yaxınlığında yapon avtomobil və elektronika istehsalı şirkətlərinin yerləşdiyi sənaye parkı var.

Yeni limanın yapon şirkətlərinin işini yüngülləşdirəcəyi və yubanmaların qarşısını alacağı gözlənilir.

# HAVA HÜCUMUNDAN MÜDAFİƏ SİSTEMLƏRİ YAPON DƏNİZİ İSTİQAMƏTİNDƏ YERLƏŞDİRİLƏCƏK

***Yaponiya hökuməti bu yaxınlarda ABŞ-dan almağa hazırlaşdığı yerüstü "Aegis Ashore" hava hücumundan müdafiə (HHM) sistemlərini Yapon dənizi istiqamətində yerləşdirməyi planlaşdırır.***

"Yomiuri shimbun" qəzeti xəbər verir ki, HHM sistemlərinin Akita və Yamaquçi prefekturalarına yerləşdirilməsi nəzərdə tutulur. Hazırda bununla bağlı son razılaşmalar aparılır.

Şimali Koreya tərəfindən artan nüvə-raket təhlükəsi fonunda Yaponiya hökuməti ölkənin raketdən müdafiə sistemlərinin gücləndirilməsinə xüsusi diqqət yetirir.

Yaponiya özünümüdafiə qüvvələri HHM sistemlərinin iki səviyyəsinə malikdir. "Aegis" sistemi ilə təchiz edilən gəmilər öz cəbbəxanalarında raket əleyhinə SM-3 raketlərinə malikdirlər və onlar ballistik raketlərin trayektoriyasına orta hündürlükdə zərbə endirə bilər. Bu alınmadığı təqdirdə ikinci səviyyədə "Patriot PAC-3" sistemləri işə salınacaq və həmin sistem raketi son mərhələdə sıradan çıxaracaq. Bu sistemin uçuş məsafəsi bir neçə on kilometrə bərabərdir.

Yaxın zamanlarda Yaponiya ABŞ-dan yerüstü "Aegis Ashore" HHM sistemini almağı planlaşdırır. Ekspertlərin qənaətinə görə, hər birinin dəyəri 80 milyard yen (təqribən 728 milyon dollar) olan iki belə qurğu Yaponiya ərazisini tam əhatə edə bilər.

***Vüqar Ağayev***



# "ŞİMAL AXINI" LAYİHƏSİ AVROPA KOMİSSİYASININ GÜNDƏLİYİNDƏDİR

***"Şimal axını-2" layihəsi ətrafında siyasi və hüquqi savaşlar səbəbindən Avropa Komissiyası Avropa İttifaqının qanunvericiliyinin fəaliyyətinin genişləndirilərək Rusiya Federasiyasından Baltik dənizinin dibi ilə Almaniyaya çəkilişi planlaşdırılan qaz kəmərlərinə də şamil olunmasını təklif etmək niyyətindədir. Avropa Komissiyasında qeyd edirlər ki, bu təşəbbüs "hansısa yeni qaz kəmərlərinin tikintisinin qarşısının alınmasına" yönəlməyib. Lakin təsdiqləyirlər ki, hazırda bu, yalnız "Şimal axını-2" layihəsinə təsir edəcək. Çünki layihə lazımi qədər irəliləmiş mərhələdədir.***

Layihəni 2019-cu ilin sonunadək başa çatdırmaq planlaşdırılıb.




Bu, ikinci qol olacaq və onu 2011-2012-ci illərdə işə salınmış birinci "Şimal axını"na paralel çəkmək istəyirlər. Lakin məhz ikinci qol layihəsi şiddətli mübarizəyə səbəb olub. Berlində layihəyə müsbət baxsalar da, Polşa və Baltikyanı ölkələr onda təhlükə görürlər. Buna görə də Avropa Komissiyası interkonnektor anlamını dəyişmək istəyir. Hazırkı Direktivdə bu, Aİ ölkələrinin qaz nəqliyyatı sistemini birləşdirən boru kəməri kimi göstərilir.

# QAYIĞIN BATMASI NƏTİCƏSİNDƏ AZI 13 NƏFƏR HƏLAK OLUB

***Hindistan ərazisindən axan Krişna çayında qayığın batması nəticəsində azı 13 nəfər ölüb.***

RİA Novosti agentliyi bildirir ki, Andxra-Pradeş ştatında baş vermiş hadisə zamanı qayıqda 40-a yaxın sərnişin olub. Batmış gəmidən 15 nəfəri xilas etmək mümkün olub.

Digər sərnişinlərin xilasetmə tədbirləri davam etdirilib.



## XƏZƏRYANI ÖLKƏLƏRDƏ SUİTİLƏRİN OVUNA QADAĞA QOYULACAQ



***Müxtəlif mənbələrdən alınan məlumatlara əsasən, keçən əsrin əvvəlində Xəzər suitilərinin sayı təqribən 1 milyona yaxın olub. Lakin böyük britaniyalı alimlərin apardıqları tədqiqat nəticəsində bu rəqəmin 110 minə qədər azaldığı müəyyənləşib. Rusiyanın Xəzər Balıqçılıq Təsərrüfatı İnstitutu isə onların sayının 380 min olduğu barədə məlumat veriblər. Hazırda Xəzər suitilərinin sayı təhlükəli həddə düşüb. Buna səbəb olan amillərdən biri də qidalandığı kilkələrin sayının on üç-on dörd il əvvələ nisbətən 10 dəfə azalmasıdır.***

Bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Elmi-Tədqiqat Balıqçılıq Təsərrüfatı İnstitutunun direktoru Mehman Axundov məlumat verib.

Direktor qeyd edib ki, Xəzər suitilərinin adının BMT-nin Vəhşi Heyvanların Miqrasiya edən Növlərinin Qorunması üzrə Konvensiyanın 1 saylı əlavəsinə daxil edilməsi nəticəsində bütün Xəzəryanı ölkələrdə onların ovuna qadağa qoyulacaq. Azərbaycanda 1952-ci ildən etibarən həmin dəniz canlılarının ovlanmadığını vurğulayan M.Axundov suitilərin yalnız Rusiya tərəfindən ovlandığını söyləyib. Belə ki, şimal qonşularımız qış aylarında yeni doğulmuş suiti balalarını ovlayırlar.

İnstitutun direktoru Xəzərin Şah Dili burnunda Xəzər suitiləri üçün dəniz qoruğunun yaradıldığını və 200-ə qədər fərdin mühafizə olunduğu ərazilərə gəldiyini də bildirib.

## BUZ OTEL







***İsveçin buz otellər tikintisi üzrə ixtisaslaşmış "ICEHOTEL" şirkəti öz müştərilərinə yeni layihə təqdim edib.***

billionnews.ru saytı bildirir ki, otel ölkənin qütb dairəsinin 200 kilometrliyindəki kəndlərdən birində yerləşir. Binanın daxilində temperatur mənfi 5-8 dərəcə arasında dəyişir.

Buz çarpayıların üzərinə maral dərisi salınır, gecə isə müştərilərə termik yataq verilir.

Xüsusi soyutma sistemləri hesabına ilin heç bir fəslində əriməyən oteldə buzdan hazırlanmış kilsə, kokteyl zalı və saunalar fəaliyyət göstərir.



## İŞÇİLƏRİ AYAQ ÜSTƏ İŞLƏYƏN OFİS

***Niderland arxitektorları "Bəsdir oturdun" adlı unikal layihə təqdim ediblər.***

billionnews.ru saytı bildirir ki, layihə müəlliflərinin əsas məqsədi oturacaq yerləri olmayan ofislərin yaradılmasıdır. Bununla da ofis işçilərini oturaq həyat tərzindən ayırmaq, fiziki hərəkətlərə vadar etməkdir.



## DÜNYANIN ƏN "AĞILLI" ŞƏHƏRİ

***İsveçin "Easypark" İT şirkəti ekspertlərinin araşdırmalarına görə, Kopenhagen dünyanın ən "ağıllı" şəhəridir. Şirkətin dərc etdiyi reytinqdə Danimarka paytaxtından sonra Sinqapur və Stokholm şəhərləri gəlir. Siyahını hazırlayanlar sürətli internet, ekoloji cəhətdən təmiz enerji ilə təchizat, əhalinin yüksək fəallığı, sahibkarlar üçün əlverişli şərait və digər amilləri nəzərə alıblar.***

Almaniya şəhərləri arasında ən "ağıllı" Berlin hesab edilib. Bu şəhər beynəlxalq reytinq siyahısında 13-cü yerdədir. Siyahıda Hamburq 14, Münxen 25, Düsseldorf 26, Bayroyt 29, Hannover 30-cu yeri tutub. Rusiya şəhərlərindən Moskva 77, Sankt-Peterburq 88-ci yerdə olub.

"Easypark" şirkətinin açıqladığı siyahı urbanizasiya və informasiya texnologiyalarının inkişafı mövzularını işıqlandıran 20 min jurnalistin dəyərləndirməsinə əsasən dünyanın 500 şəhəri haqqında məlumata əsaslanıb.

## SU NƏQLİYYATININ HƏRƏKƏTİN ÜMUMİ TƏNZİMLƏNMƏSİ SİSTEMİNƏ SALINMASI İMKANI MÜZAKİRƏ EDİLİR

***Mütəxəssislər ətraf mühitin tədqiqi zamanı aşkar ediblər ki, çay nəqliyyatı mühərriklərindən atmosferə buraxılan qazlar Avropanın paytaxt şəhərlərində havanın çirklənməsində mühüm rol oynayır.***




Son illər iri çay limanlarının sərhədində Vltava, Dunay, Reyn, Odra ilə hərəkət daha intensiv olduğu üçün hökumət orqanları zərərli tullantıların atmosferə buraxılmasının azaldılması yollarını vacib hesab edirlər.

Təkcə Praqanın Smixov şlüzündən ildə 25 min kater və paroxod keçir. Çexiyanın "Deník" nəşri xatırladır ki, hazırda paytaxtda dəniz nəqliyyatı mühərriklərindən atmosferə buraxılan tullantılar heç cür tənzimlənmir. Heç bir gəminin istismara nə vaxtdan buraxılmasının və onun vəziyyətinin qeydiyyatı aparılmır. Hazırda şəhər hakimiyyət orqanları su nəqliyyatının hərəkətin ümumi tənzimlənməsi sisteminə salınması imkanını müzakirə edirlər ki, bu, şəhərdə tüstü görünməsi rejimi elan ediləcəyi təqdirdə çay gəmilərinin hərəkətinə qadağa qoymağa imkan verəcək.

***Pərvanə Qarayeva***

## İLK ELEKTRİK GƏMİSİ SUYA BURAXILIB

***Çinin Quancou şəhərində dünyanın 2 min tonluq ilk tam elektrik gəmisi suya buraxılıb.***



Quancou gəmiqayırma zavodunda inşa edilmiş gəmi 2 saat enerji yığmaqla 80 kilometr məsafə qət edə bilir. Uzunluğu 70,5 metr, eni 13,9 metr olan gəminin enerji batareyalarının tutumu 2400 kilovat/saatdır.

Zavodun mütəxəssisləri gələcəkdə daha da təkmilləşdirilmiş modellər inşa etməyi planlaşdırırlar.

## BALİNALARIN QEYRİ-ADİ XİLASEDİLMƏ ƏMƏLİYYATI









***İndoneziyada dəniz heyvanlarının qeyri-adi xilasedilmə əməliyyatı həyata keçirilib. Açex vilayətində xilasedicilər və yerli sakinlər Uconq Karenq çimərliyi ərazisində özlərini sahilə atan 10 kaşalotu xilas etməyə çalışıblar.***

Interfax informasiya agentliyi xəbər verir ki, hadisə nəticəsində 4 kaşalot ölüb, 6 kaşalotu isə dənizə qaytarmaq mümkün olub. İnsanlar onların tələf olmuş həmcinslərinin yanına - sahilə qayıdacağından ehtiyatlanırlar.

Balinaların bu hərəkətinin səbəbləri məlum deyil. Ola bilsin ki, bu, hər hansı xəstəliklə bağlıdır.

## "GEELY" KORPORASİYASI UÇAN AVTOMOBİLLƏR İSTEHSAL EDƏN ŞİRKƏTİ ALIR

***Çinin "Zhejiang Geely Holding Group"u ABŞ-ın uçan avtomobillərin istehsalı üzərində işləyən "Terrafugia Inc" şirkətini alır.***

Çin şirkətinin rəsmiləri alqı-satqı haqqında ətraflı məlumat yaymasa da, sövdələşmənin ABŞ-ın bütün müvafiq qurumları ilə razılaşdırıldığını bildirib. "Geely" uçan avtomobil layihəsinin reallaşması üçün "Terrafugia" şirkətinə əlavə sərmayə yatırmağı söz verib. Razılaşmaya əsasən, "Terrafugia"nın baş ofisi ABŞ-da fəaliyyətini davam etdirəcək.

Qeyd edək ki, 11 il əvvəl yaradılan "Terrafugia" şirkəti 2019-cu ildə özünün ilk uçan avtomobilini bazara çıxarmağı qarşıya məqsəd qoyub. Bundan başqa, şaquli istiqamətdə enib-qalxan ilk avtomobilin 2023-cü ilədək hazır olacağı güman edilir.

Müxtəlif növ avtomobil və motosiklet istehsal edən Çin şirkəti ötən il "Geely" və "Volvo" brendi ilə 1,6 milyon avtomobil, o cümlədən "London Taxi" modeli satıb. Şirkət 2010-cu ildən "Volvo"nu (100 faiz), 2012-ci ildən "The London Taxi Company"ni (100 faiz), cari ilin iyununda isə "Lotus" idman avtomobili istehsalçısını (49,9 faiz) alıb. Ümumi dövriyyəsi 23 milyard ABŞ dollarından çox olan "Geely"nin 9-u xaricdə olmaqla 18 zavodu, 60 mindən çox işçisi var.

***Şahin Cəfərov***




## GÖLÜN DİBİNDƏ QƏDİM QALA DİVARLARI TAPILIB

***Türkiyənin Van gölünün dərinliyində tarixi qala divarları aşkarlanıb. Daş divarlar böyük bir ərazini əhatə edir.***



Gölün dərinliyindəki tədqiqat işləri Van Yüzüncü Yıl Universiteti tərəfindən aparılır. İlkin ehtimala görə, təxminən 3000 il yaşı olan divarlar Adilcevaz qalasına məxsusdur. Van gölünün suyunun tərkibində çox miqdarda soda olduğu üçün qala divarlarının daşlarında çürümə müşahidə edilməyib.

## ALKOQOL VƏ NİKOTİN QƏBULUNA GÖRƏ ARZUOLUNMAZ ÖNCÜL YERLƏRDƏN BİRİNİ TUTURLAR



***Avstriya sakinləri alkoqol və nikotin qəbuluna görə Avropada arzuolunmaz öncül yerlərdən birini tuturlar. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) yaydığı "Sağlamlığa baxış - 2017" adlı hesabata əsasən, bu ölkədə əhalinin 24 faizi hər gün siqaret və ya digər tütün məmulatlarından istifadə edir. İƏİT məkanında bu sahədə orta göstərici isə 18 faizdir. Təşkilata üzv ölkələrdə əhali arasında siqaret aludəçilərinin sayı son 15 ildə orta hesabla 25 faizdən 18,4 faizə endiyi halda, Avstriyada bu göstərici dəyişməz olaraq qalıb. Tütün məmulatlarına meyllilik şkalasında Avropada Avstriyanı qabaqlayan yeganə ölkə Yunanıstan (27,3 faiz) olub.***

Təşkilatın hesabatında, həmçinin Avstriyada ictimai iaşə obyektlərində siqaretin tamamilə qadağan olunmasına dair 2018-ci ilin mayında qüvvəyə minəcək qanun düzgün, lakin yetərincə gecikmiş addım kimi dəyərləndirilib.

Spirtli içkilərin istehlakında Avstriya Litva və Belçikadan sonra üçüncü yerdə qərarlaşıb. Bu ölkədə hər bir şəxs illik orta hesabla 12,3 litr alkoqol qəbul edir. Avropada ən az spirtli içkini isə norveçlilər istehlak edir, bu ölkədə adambaşına spirtli içki istehlakı 6 litrə bərabərdir.

Əhalinin zərərli vərdişlərə meylliliyinin orta statistikadan yüksək olmasına baxmayaraq, Avstriya əhali uzunömürlülüyü ilə diqqəti cəlb edib. Ötən əsrin 70-ci illəri ilə müqayisədə əhalinin orta ömür həddi 11 il uzanaraq, 80,6 ilə çatıb. Buna əsas səbəb kimi ölkədə təkmil səhiyyə sistemi və tibbi təminatın olması göstərilib. Uzunömürlülər siyahısında liderlik isə 87,1 yaşla Yaponiya əhalisinə məxsusdur.

***Elgün Niftəli***

## YARIZARAFAT, YARIGERÇƏK

**Yavaş danışdığım üçün dediklərim çox adama çatmır?**

**İki uzunqulağın arpasını bölə bilməyəndən ancaq və ancaq arpası çox düşən razılıq edə bilər.**

**Bundan sonra ayağımın altını qazacağam. Bir vaxtlar ayağımın altını qazanların əksəriyyəti indi imkanlı adamlardır.**

**Qadının göz yaşlarını tökməyə gücü çatan kişinin gücü soğandan çox deyil.**

**İnsan kimi yaşamağın bir yolu var:dürüst olmaq.**

**Heç nə səhvlər qədər adamı kiçiltmir.**

**Oynamadığım üçünmü mən heç vaxt qazanmadım?**

**Sənə inanana sayğı göstər, hər "sayğı" göstərənə isə inanma.**

**Bəzi ideyaların başağrısından başqa, nəticəsi olmur.**

**Sizi satan dostlarınızdan inciməyin. Dəyəriniz olmasaydı, sata bilməzdilər.**

**Ömür elə tez keçir ki, gələcək haqqında fikirləşməyə vaxt tapmırsan.**

**Gözün toxluğu bütün qarınların toxluğundan üstündür.**

**Mən çox şey itirmişəm. Amma heç nəyi nəyi isə qazanmaq xatirinə itirməmişəm.**

**Söyüddən bar gözləmədiyim kimi, heç kəsdən mərhəmət gözləmirəm.**

**Bu qədər günahla Allah qarşısına necə çıxacağıq?**

**Mən zəngin və imkanlı adamların heç kimiyəm. Heç kimi olmayanların isə kimisəyəm.**

**Nə qədər çox dərk etdimsə, o qədər çox üzüldüm. Nə qədər çox üzüldümsə, o qədər də çox dərk etmək istədim.**

**Deyəsən, "Tarix-Nadir"i yarıyacan oxuyanların yarısı özünü tarixçi sayır, yarısı da ədəbiyyatçı.**

**Əzrayıldan qorxmağa dəyməz. Hələ kimsə onu satın ala bilməyib.**

**Onsuz da səni yolundan döndərmək istəyən çox olacaq. Sən də dönmək barədə fikirləşmə.**

**Pulla çox şeyi satın almaq olur. Ən pis odur ki, pul adamın ağlını başından alsın.**

**Şəriklik pis olduğu üçün heç kim heç kimin dərdinə şərik olmur?**

**İnsanlıqdan nə qədər uzaqlaşmaq lazımdır ki, bir adamın başqasına yaxşılığı adama möcüzə kimi görünsün?**

**Adamları üzündən oxuyandan oxumaq həvəsim tamam ölüb.**

**Hər günüm eyni sualla bitir:məni bağışlamaq olarmı?**

**Səbrin və vaxtın nə qədər çox olsa da, pis adamdan yaxşılıq gözləmə.**

**Mən böyümək istəmirəm. Onsuz da adamlar gündən-günə cılızlaşırlar.**

**Yaxşılıqdan başqa, əlimizdən gələn hər şeyi etdik.**

**Döyüşə satqınlarla gedən ağ bayraq da götürməlidir.**

**Ekoloqların qadağasına baxmayaraq, arabir şir ürəyi də yemək lazımdır.**

**Bəşəriyyətin bir xilas yolu var:insanlığa doğru getmək. Qalan yollar onu məhvə aparır.**

**Yaltaqları həmişə dəyişmək olar.**

**Görəsən, hər vəzifəli və ya imkanlıya orta hesabla neçə yaltaq düşür?**

**Yaltaqlar mənən şikəst adamlardır. Və bəlkə yeganə şikəstlərdir ki, mərhəmətə yox, nifrətə layiqdirlər.**

**Yaltaqlıq irsən keçir?**

**İnsanı həyata bağlayan... ölüm qorxusudur.**

**Kişilər ailə qurmazdan əvvəl gözlərini, ailə qurandan sonra ciblərini geniş açmalıdırlar.**

**Böyük adamın kiçik xətası da kiçik adamın böyük xətasından böyük olur.**

**Hamını tanımaq vacib deyil. Ətrafını yaxşı tanı.**

**Ən qısa və ən rahat yol cəhənnəmə aparan yoldur.**

***Rasif TAHİROV***



# BAKININ "AVRO-2020"YƏ HAZIRLIĞI MÜZAKİRƏ OLUNUB

***2020-ci ildə 13 şəhərdə təşkil olunacaq futbol üzrə Avropa çempionatına hazırlıq işləri ilə tanış olmaq məqsədilə UEFA nümayəndələri Bakıya səfərə gəliblər.***

Noyabrın 17-də AFFA-nın inzibati binasında baş katib Elxan Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti "Avro-2020"nin ev sahibi ölkələrin layihələrinin rəhbəri Guillaume Poisson və Fan-zonalar üzrə menecer Tomas Qlur ilə görüşüb.

UEFA nümayəndələrinə "Avro-2020" ilə bağlı görülmüş işlər barədə məlumat verilib, onları maraqlandıran suallar cavablandırılıb.

Qitə futbol qurumunun təmsilçiləri səfər müddətində "Avro-2020" zamanı yaradılacaq fan-zonaların yerləşəcəyi ərazilərə də baxış keçirəcəklər.

Xatırladaq ki, "Avro-2020"nin 4 oyunu (qrup mərhələsinin üç, dörddəbir final mərhələsinin bir görüşü) Bakı Olimpiya Stadionunda təşkil olunacaq.

# YEDDİ YAŞLI GİMNASTIMIZ MACARISTANDA BEYNƏLXALQ TURNİRDƏ QIZIL MEDAL QAZANIB






***Macarıstanın Pecs şəhərində bədii gimnastika üzrə XIII Beynəlxalq Pecs Kuboku turniri keçirilib.***

Yarışda iştirak edən 7 yaşlı həmyerlimiz Mina Abbasova fəxri kürsünün ən yüksək pilləsinə qalxaraq turnirin qızıl medalına layiq görülüb. Turnirdə ev sahibi Macarıstan ilə yanaşı, Xorvatiya, İsrail, Avstriya, Rusiya, Bosniya və Herseqovina, Polşa, Serbiya, Birləşmiş Ərəb Əmirlikləri, İsveç, Almaniya, Moldova, Slovakiya, Sloveniya, Belçika və s. olmaqla ümumilikdə 15-dən çox ölkənin təmsilçiləri iştirak ediblər.

Mina Abbasova artıq iki ildir Budapeştdə fəaliyyət göstərən "Rus RG Sport" klubunda gimnastika ilə məşğul olur. Klubun rəhbəri Lyubov Bernat və məşqçi İnqa Mackuz Minanın gələcəkdə istedadlı gimnast olacağına əmindirlər.

Beş yaşından başlayaraq iştirak etdiyi bütün beynəlxalq yarışlarda parlaq çıxışı ilə yaşıdlarından fərqlənən Mina Abbasova Almaniya, Serbiya və Sloveniyada keçirilən beynəlxalq turnirlərdə də fəxri kürsünün yüksək pillələrinə qalxıb. Həmin yarışlarda Mina ailəsinin hazırda yaşadığı ölkəni – Macarıstanı təmsil etsə də, ən böyük arzusu turnirlərdə Azərbaycanın bayrağımızı dalğalandırmaqdır.

M.Abbasova dekabrın 9-da Budapeştdə keçiriləcək XIII Beynəlxalq "Mikulaş" yarışında, dekabrın 16-da isə Lüksemburqda VI dəfə təşkil olunacaq "Lüksemburq Kuboku-2017" Beynəlxalq turnirində iştirak edəcək.

***Pərvanə Qarayeva***




# ÇİNDƏ TƏŞKİL OLUNAN ƏNƏNƏVİ YARIŞLARDA DAİM YÜKSƏK NƏTİCƏLƏR GÖSTƏRİR

***Pekin İdman Universitetində təhsil alan Sadiq Həsənov Çində "DMS bodibildinq və fitnes-2017" yarışının final mərhələsinin qalibi olub.***




Bodibildinq üzrə Çində keçirilən ən irimiqyaslı yarışlardan olan çempionatda idmançılar 9 kateqoriyada mübarizə aparıb. Pekində keçirilmiş final mərhələsinə il ərzində təşkil olunan yarışlarda yüksək nəticələr göstərmiş idmançılar yarışmaq hüququ qazanıb.

S.Həsənov fitnes-model yarışında "A" kateqoriyasında gücünü sınayıb. Bütün rəqiblərindən üstün olan həmyerlimiz yarışın qalibi adını qazanıb.

Qeyd edək ki, S.Həsənov Çində təşkil olunan ənənəvi yarışlarda daim yüksək nəticələr göstərir. O, bir neçə yarışda mükafatçılar sırasında olmağı bacarıb.

# AZƏRBAYCAN İDMANÇISI GİMNASTİKA ÜZRƏ TAMBLİNQ YARIŞLARININ QALİBİ OLUB



***Bolqarıstanın paytaxtı Sofiyada batut gimnastikası və tamblinq (akrobatik cığırda tullanma) üzrə müxtəlif yaş kateqoriyaları arasında ümumdünya yarışları keçirilib.***

Nüfuzlu yarışlar idman aləmində həm də gənclər arasında dünya çempionatı kimi tanınır.

Azərbaycanı bu mötəbər turnirdə təmsil edən 21 yaşlı Mixail Malkin bütün rəqiblərinə qalib gələrək tamblinq üzrə yarışların qızıl medalını qazanıb.

# QIŞ OLİMPİYA OYUNLARINA EV SAHİBLİYİ EDƏ BİLƏR

***Türkiyə 2026-cı il Qış Olimpiya Oyunlarına ev sahibliyi edə bilər. Bunun üçün qardaş ölkədə böyük imkanlar mövcuddur.***



Türkiyənin Sarıqamış, Qars, Ərzurum və Ərzincan şəhərlərinin yerləşdiyi bölgədə 2026-cı il Qış Olimpiya Oyunlarına namizədlik iddiası üçün hazırlıqlar görülür. Bu şəhərlərin yerləşdiyi coğrafiyada Qış Olimpiya Oyunlarını təşkil etmək üçün geniş təbii şərait və böyük infrastruktur mövcuddur.

Prezident Rəcəb Tayyib Ərdoğan məsələ ilə bağlı aidiyyəti qurumlara tapşırıq verib. Rəsmi məlumatlarda bildirilir ki, Beynəlxalq Olimpiya Komitəsi 2018-ci ildə Cənubi Koreyada keçiriləcək Qış Olimpiya Oyunları başa çatandan sonra 2026-cı ilin Olimpiya Oyunlarına namizəd olan tərəflərin iddialarını dəyərləndirməyə başlayacaq.

Xatırladaq ki, 2022-ci ilin Qış Olimpiya Oyunları Pekində keçiriləcək.

# ƏN BAHALI HEYƏT




***Braziliyanın futbol yığması oyunçuların transfer qiyməti baxımından, Rusiyada keçiriləcək "DÇ-2018"də ən bahalı iştirakçı komanda olacaq.***

"Transfermarkt" saytı xəbər verir ki, Braziliya yığmasının beşqat dünya çempionu olan futbolçularının ümumi qiyməti 671,5 milyon avrodur. İlk beşliyə, həmçinin İspaniya (643,5 milyon), Almaniya, Fransa (hər biri 636,5 milyon) və Argentina (528,5 milyon) daxildir.

Hazırda Avropa çempionu olan Portuqaliya yığması reytinqdə doqquzuncu yerdədir. "DÇ-2018"də ən ucuz komandalar Kosta-Rika (21,8 milyon), Səudiyyə Ərəbistanı (18,83 milyon) və Panama (5,25 milyon) yığmalarıdır.

Rusiya ərazisində tarixdə ilk dünya çempionatı 2018-ci il iyunun 14-dən iyulun 15-dək keçiriləcək.

# ÖZÜNDƏN GÜCLÜLƏRLƏ DÖYÜŞƏN XANIM

## *Fəridə Abdullayeva: "Nə qədər çox aktiv və sürətli olsanız, həmişə birinci olacaqsınız"*



***İstək olan yerdə hər şey etməyin mümkün olduğunu düşünür. Amma təkcə istəməklə hər şey əldə etmək mümkün deyil. Deyir ki, bunun üçün çox çalışmalı, daima hərəkətdə olmalısan. Müsahibimiz dənizçi və idmançı xanım Fəridə Abdullayevadır. Uşaqlıqdan bəri idmana həvəsi olan həmsöhbətim bildirdi ki, əvvəl sırf özünümüdafiə üçün karate ilə məşğul olub, sonra proseslər peşəkar idmançı olması istiqamətində cərəyan edib.***

Qeyd edək ki, F.Abdullayeva 1993-cü ildə Bakı şəhərində anadan olub. Bakıxanov qəsəbəsində 74 nömrəli məktəbdə oxuyan Fəridə 9-cu sinifdən sonra təhsilini Bakı Peşə Liseyində davam etdirib: "Liseyi bitirib sənədlərimi Dəniz Akademiyasına təqdim etdim. İmtahan verib Nəqliyyatda daşımalar və İdarəetmənin təşkili mühəndisliyi ixtisasına qəbul oldum. Oxuduğum müddət ərzində mağazalar şəbəkəsinin birində kassir işləyirdim. Dərslər günorta saat 1-də bitdiyinə görə, saat 6-da işə getmək imkanım olurdu. Bu müddət ərzində "Caspian Marine Services" şirkətinin ümumi və kommersiya şöbəsində vakant yer olduğunu öyrəndim və orada işə başladım. Orada bir il işlədikdən sonra "Azersun" Holdinqdə özümü sınadım. Lakin nədənsə, həmişə öz yerimdə olmadığımı fikirləşirdim. Ona görə, fərqli sahələrə üstünlük verməyə başladım. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də tələbələrin işlə təmin edildiyini öyrəndim və ora müraciət etdim. Artıq bu ilin fevral ayından orada çalışıram".

**- Həm dənizçi, həm idmançı. Bu sahələrdə xanımlara çox az rast gəlinir. İkisi bir arada çətin deyil?**

- Bütün bunlar təsadüf deyil. Mən həmişə güc tələb olunan yerlərə üstünlük verirəm. Ona görə də liderliyin daha çox olduğu sahələr diqqətimi çəkib. Əslində istək varsa, hər şey etmək mümkündür. Ancaq istəkdən əlavə, hərəkət də lazımdır. Mənə görə, həyat hərəkətdən ibarətdir. Su da bir stəkanda qalanda kiflənməyə başlayır. Ona görə də daima hərəkətdə olmağa çalışıram. Ünsiyyətcil biriyəm və insanların olduğu mühitə daha çox üstünlük verirəm. İdmandan əlavə, psixologiya və fəlsəfəyə böyük marağım var. Detektiv əsərləri, xüsusən Çingiz Abdullayevin kitablarını oxuyuram.

**- İdmançı kimi ilk addımlarınızı atmağa nə vaxtdan başladınız?**

- Atamgil 4 qardaş olublar. Onların da hərəsinin iki oğlu olub. Nəsildə ən sonuncu qız mən olmuşam. Anam həmişə fikirləşirdi ki, qızımı evdə tək qoyub getsəm, onu incidə bilərlər. Məndən böyük qardaşım var. Amma o da sakit təbiətli biridir. İlk vaxtlar məni bir növ özünü müdafiə üçün idmana göndərdilər. Lakin müəllimim həvəsim və potensialım olduğunu gördü və mənə yarışlara çıxmağı təklif etdi. Qatıldığım ilk yarışda respublika üzrə birinci yeri qazandım. Bundan sonra həvəsləndim və daha da çox məşğul olmağa başladım. Onu da qeyd edim ki, idmanla məşğul olmağıma baxmayaraq təhsili heç vaxt kənara atmamışam. Çünki idman hansısa yaş həddinə qədərdir. Amma ixtisas, insanın aldığı təhsil ona həmişə lazım olur. Təqribən 13 il karate ilə məşğul oldum. Sonuncu dəfə İsveçrədə dünya kubokunda birinci oldum. Hətta karateni atdıqdan sonra içimdəki idman həvəsi ölmədi. Bir müddət taekvando, boksla məşğul oldum. Amma bu idman növləri mənim diqqətimi bir o qədər də çəkmirdi. Sonra elə oldu ki, işə getdiyim vaxt kikboksinq üzrə 5 qat dünya çempionu Pərviz Abdullayevin böyük bir plakatı ilə rastlaşdım. Araşdırma apardım və "Youtube"da videolara baxdım. Gördüm ki, orada əl və ayaq döyüşləri var. Beləcə, kikboksinqlə məşğul olmağa başladım. Amma başlamamışdan öncə bu sahədə potensialımın olub-olmamağı haqqında müəllimimin fikrini öyrəndim.



**- İdman şəxsi həyatınıza mane olmur ki?**

- Demək olar ki, şəxsi həyatım yoxdur. Uşaqlıqdan bəri ətrafımda oğlanlar daha çox olub deyə, mən də oğlan kimi böyümüşəm. Hətta, uşaq vaxtı "samokat" sürürdüm. Mən uşaqlığımı telefon, kompüter, televizorla keçirməmişəm. Yəni, uşaqlığımdan istədiyim kimi həzz almışam. İdmanla məşğul olduğum vaxtlarda qızlarda karateyə o qədər də həvəs yox idi. Ona görə də, karateyə başlayanda orada hamı oğlan idi. Liseydə də cəmi 3 qız idik. Orada oğlanları mən idarə edirdim. Hər zaman oğlanlar içində olduğuma görə, elə oğlan kimi də böyüyürəm.

**- Ailə qurandan sonra bəzən xanımlar idmana vaxt ayıra bilmirlər...**

- Məncə, hər bir xanımın dayağı öz ailəsi olmalıdır. Adətən, idmançılar məqsədə çatdıqdan sonra daha da çox qazanmaq istəyirlər. Amma bu da qismətdən asılıdır. Gələcəkdə ailə qursam, əlbəttə ki, ailəmə daha çox zaman ayıraram, nəinki idmana. Lakin bununla belə, həmişə özümü formada saxlamağa çalışaram. Ümumiyyətlə, artıq çəki insanın sağlamlığına ziyandır. İnsan özünə nə qədər baxarsa, bir o qədər yaxşıdır. Adətən, insanlar gün boyu ofis şəraitində gəzmədən otururlar. Gecə də hərəkətdə olmuruq. Evə gəldikdən sonra yemək yeyib yatırıq. Mən kikboksinqə başlayanda qarşıma məqsəd qoydum ki, su içməliyəm. Çünki burada çox enerji itirirsən və su içmək lazımdır. Şirniyyatı çox sevsəm də, qədərində yeməyə çalışıram. İdmanla məşğul olmadığım vaxtlarda belə, hərəkətsiz qalmıram. Adi vaxtda gəzəndə də sürətli hərəkət edirəm. Bəlkə də bu xarakterdən asılıdır. Nə qədər çox aktiv və sürətli olsanız, həmişə birinci siz olacaqsınız.

**- Eyni vaxtda həm işə, həm idmana vaxt çatdırmaq çətin deyil ki?**

- Düzü, işdən sonra yorğun halda gecə vaxtı məşqə getmək bir az çətindir. Məşqlərimiz axşam saat 8-də başlayır. Evə çatanda artıq ikiqat yorğun oluram, hər şey monotonlaşır. Zəif tərəflərimi bildiyim üçün onların üzərində işləyirəm. Qorxmuram, ancaq hər zaman onu ağlıma gətirirəm ki, əlləri aşağı salmaq olmaz. Nəinki idmanda, bu, həyatda da belədir. Məsələn, işdə hansısa vəzifədəyəmsə, zəiflik göstərib deyə bilərəm ki, əşi bu nə vəzifədir, gərək mən işimi dəyişim. Bəlkə başqa yerdə daha çox qazana bilərəm. Amma o, bir müddət olacaq. Səbir göstərib hər zaman möhkəm olmaq, bəzi şeyləri görməməzlikdən gəlmək, hər bir vəziyyətə hazır olmaq gərəkdir. Bütün detallara fikir verməli, tələsməməlisən.

**- Hiss olunur ki, təkcə fiziki yox, daxilən də güclü birisiniz...**

- Fiziki güc başqa, daxili güc tam başqa şeydir. Daxili güclə, dağı da yerindən tərpətmək olar. Bilmirəm belə demək nə dərəcədə düzgündür, amma daxili güc bütün sahələrdə - ailədə, işdə, idmanda hər şeyi yerindən tərpədər. Məsələn, bir yarışda qarşımdakını nokaut etməyimin səbəbi də daxilimdəki gücü hiss etməyim oldu ki, onu vurub aşıra bildim.

**- Bu haqda bir az ətraflı danışasınız bəlkə...**

- Yarışların birində rəqibimin müəllimi ona mənim ayaqlarla daha yaxşı işlədiyimi deyib. Mənim müəllimim isə yarışdan əvvəl mənə dedi ki, sən qarşındakına sürpriz etməlisən. Bilirsiniz, müəllimdən çox şey asılıdır. Şükürlər olsun ki, müəllimim Mehman Umudov çox təcrübəlidir. Sürpriz deyəndə nəyi nəzərdə tutduğunu bilmirdim. O, hər kəsin mənim ayaqla işlədiyimi, əl ilə zəif olduğumu fikirləşdiyini dedi. Əlavə etdi ki, sən onu əl ilə yıxa bilərsən. Və mən yarışda rəqibimi əl ilə nokaut etdim. O anda mən kənardan heç nəyi hiss etmirdim, amma daxili gücümə arxalanaraq əl ilə işləməyə başladım və nəticəsi də oldu.

**- Sizə görə, qələbənin sirri nədədir?**

- Rinqdə olanda rəqibin zəif olduğu anı tutmağı bacarmalısan. Boşluğu tuta bilsən, rəqibini məğlub edə bilərsən. Belə olanda rəqib ayaq üstə çox dayana bilməyəcək. Çünki bu, onun zəif yeridir. Mən karatedən gəldiyimə görə, əlim bir az zəifdir. Həmişə oğlanlarla məşq etməyə çalışıram. Bir dəfə qızlarla məşq etdim və başa düşdüm ki, burada olsam zəifləyərəm. Güclü olmaq üçün özündən güclülərlə döyüşməlisən. Ümumiyyətlə, heç bir yarış asan olmur, istər-istəməz həyəcan və məsuliyyət olur. Sənə inanan insanları pis vəziyyətdə qoymamalısan. Mən həmişə özümdən çox müəllimimi fikirləşirəm. Bu yarışa çıxacağımı bilmirdim. Düşünürdüm ki, sadəcə, tamaşaçı olaraq baxacağam. Kikboksinqdə ilk dəfə olsa da, karatedə müvəffəqiyyətlərim olub. Müəllimim mənə "yarışa çıxırsan" deyəndə, onun gözlərində olan inamı gördüm. Mən onun inamını yanıltmaq istəmirdim. Düzdür, özünü düşünməmək də yaxşı hal deyil. Amma mən həmişə belə olmuşam.

***Şəbnəm Mehdizadə***

**BAŞ REDAKTOR**
**Rasif İman oğlu TAHİROV**

**Ünvanımız:**
**AZ1029, Bakı şəhəri, Heydər Əliyev prospekti, 152**
**TELEFONLARIMIZ:**
**Baş redaktor (050) 670-33-76; 30-67 (daxili)**

**Qəzetin təsisçisi: "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti**

**Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur**

**Şəhadətnamə: 275**
**Tiraj: 2000**
**Sifariş: 3379**